Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

8 YANVAR 2020-ci il

№ 1 (4132)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# PAŞİNYAN BVF-ni DƏ SAXTALAŞDIRIR - ERMƏNİSTAN ADAMBAŞINA ÜDM ÜZRƏ AZƏRBAYCANI ÜSTƏLƏYƏ BİLƏR?

■ səh. 6 ■

Prezident Azərbaycanın AB üzvlüyü üçün prinsipial şərti qəti və aydın dedi - AB səfiri güzəştə meylli olacaqmı...

■ səh. 3 ■

ABŞ-İran ziddiyyətlərinin həllində Bakının vasitəçilik perspektivi - Bakı görüş yeri kimi...

■ səh. 8 ■

Azərbaycanla İranın dəmir və quru yollar strategiyası Ermənistanı regional əməkdaşlıq xəritəsindən silinmək həddinə salır...

■ səh. 5 ■

21 siyasi partiyanın iştirakı - 9 fevral seçkisinin çoxpartiyalılığı təmin olundumu...

■ səh. 4 ■

Azərbaycanın qızıl strategiyasının özü "qızıla çevrilir"...

■ səh. 10 ■

Banklar real sektoru istehlak kreditlərinə qurban verməkdə davam edir...

■ səh. 11 ■

Evlərin sığorta məsələsini ajiotaja çevirib pul qazanmaq istəyən dəllallar peyda olub...

■ səh. 13 ■

Aran bölgə fermerlərimiz quraqlıqdan "yanır" - qar-yağış yox, kanallara da su vurulmur...

■ səh. 14 ■



## «Barmek»in bərbad günə qoyduğu işıq sistemimiz - indi dünyada ikinci yerə yüksəlib

■ səh. 2 ■



ABŞ və İranın ilk savaş meydanının İraq olacağı proqnoz edilir...

■ səh. 9 ■

Tiflisdə ortaq Azərbaycan - Gürcüstan Universitetinin yaradılmasına mane olan erməni faktoru...

■ səh. 7 ■




«Unibank» müştərilərinin kartından pul oğurlanır - bankın etibarı yeni təhlükədə...

■ səh. 12 ■

20-25 il eyni dairədən seçkiyə qatılan namizədlərlə bağlı ictimai rəydə ən müxtəlif fikirlər...

■ səh. 4 ■



ABŞ vətəndaşları üçün Azərbaycanda nə təhlükə var ki...

■ səh. 8 ■



Maddi-texniki bazası zəif olan özəl universitetlər birləşdiriləcək, ləğv olunacaq(?)

■ səh. 15 ■



Yeni il Azərbaycanda qızılın qiymətinə düşmədi - artım nə ilə bağlıdır...

■ səh. 12 ■



Azərbaycana qida məhsulları idxalında artım davam edir - niyə...

■ səh. 14 ■



# "Barmek"in bərbad günə qoyduğu işıq sistemimiz - indi dünyada ikinci yerə yüksəlib

*Prezident "hətta dağ kəndləri, generasiyadan mənzillərə qədər dayanıqlı elektrik enerjisi..." tapşırığını verdi*



**Prezident İlham Əliyev Vüqar Əhmədovu "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini vəzifəsindən azad edərək, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri təyin edib. Prezident İlham Əliyev Vüqar Əhmədovu "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edib.**

Görüşdə çıxış edən Prezident İlham Əliyev deyib:

- Mən sizi "Azərişıq" Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, siz bu vəzifəyə məsuliyyətlə yanaşacaqsınız.

Bu çox məsuliyyətli vəzifədir və enerji təminatı hər bir ölkə üçün strateji sahədir. Son illər ərzində ölkəmizdə bu sahədə çox böyük işlər görülübdür. Regionların sosial-iqtisadi inkişafına dair 2004-cü ildə qəbul edilmiş birinci Dövlət Proqramı çərçivəsində enerji güclərinin yaradılması nəzərdə tutulurdu. Artıq biz buna tam nail olduq. Bu gün bizim təqribən 1000 meqavatlıq əlavə enerji güclərimiz var ki, bu güclər həm ehtiyat təşkil edir, həm də ixrac potensialımızı genişləndirir. Keçən il ölkəmiz elektrik enerjisinin ixracından təqribən 60 milyon dollar civarında vəsait əldə edibdir.

Bütün bu işlərin təməlində generasiya güclərinin yaradılması dayanır. Biz son 15 il ərzində təqribən 3000 meqavata yaxın yeni generasiya gücləri yaratdıq, bir çox elektrik stansiyaları inşa edildi və beləliklə, Azərbaycan bu istiqamətdə dünya miqyasında aparıcı ölkələrin birinə çevrilibdir.

...İndi bəziləri unudub, vaxtilə elektrik enerjisinin qıtlığına görə gecə saatlarında televiziya kanalları söndürülürdü. Bakının enerji təminatı tamamilə bərbad vəziyyətə düşmüşdü. Bakının enerji təminatını inhisara götürmüş "Barmek" şirkəti enerji təsərrüfatını tamamilə sıradan çıxarmışdı. İndi bir çoxları o dövrü unudub. Mən bunu yaxşı xatırlayıram ki, məhz mənim göstərişimlə və sərəncamımla xarici iş adamlarının yarıtmaz fəaliyyəti geniş təhlil edildi. Bakının enerji təminatı yenə dövlətə qaytarıldı və "Azərişıq" yaradıldı. "Azərişıq" Səhmdar Cəmiyyətinin adını da mən vermişdim. O gündən bu günə qədər dövlət bu sahəyə böyük vəsait ayıraraq ciddi dönüş yarada bildi. Bu gün Azərbaycanda enerji dayanıqlılığı tam təmin edilir.

Ancaq bütün bu müsbət məqamlara baxmayaraq, böyük çatışmazlıqlar da, böyük qüsurlar da olubdur. Əgər bunlar olmasaydı, 2018-ci ildə biz o qəza ilə üz-üzə qalmazdıq.

Beləliklə, növbəti illərdə bizim artan tələbatımızı ödəmək üçün həm yeni stansiyalar qurulmalıdır, həm də elektrik enerjisini təmin edən mövcud qurğular təftiş edilməlidir, yeni yarımstansiyalar inşa olunmalıdır, təmir edilməlidir. Biz bütün bu işləri görürük və ardıcıl şəkildə görəcəyik. "Azərişıq" da öz işində ən müasir prinsipləri rəhbər tutmalıdır. Bizim bütün enerji təsərrüfatımız yüksək standartlara cavab verməlidir. Generasiyadan başlamış son nöqtəyə - vətəndaşların mənzilinə qədər elektrik enerjisi dayanıqlı şəkildə təmin edilməlidir.

Odur ki, mən Prezident kimi fəaliyyətə başlayanda infrastruktur layihələri arasında, ilk növbədə, məhz bu sahəyə böyük diqqət göstərildi. Mənim göstərişimlə və nəzarətim altında bölgələrdə bir neçə elektrik stansiyası tikilmişdir. Biz "Xaçmaz", "Şahdağ", "Astara", "Şəki", "Bakı" stansiyalarını tikdik ki, hər bir bölgədə güclər mövcud olsun və artırılsın. Şirvan şəhərində 800 meqavata yaxın generasiya gücü olan "Cənub" elektrik stansiyası tikilmişdir. "Şimal-1", "Şimal-2" elektrik stansiyaları istifadəyə verilmişdir. Bütün bunlar böyük zəhmət, uzaqgörənlik tələb edir. Biz vaxtilə idxaldan asılı idik. İndi isə biz özümüzü elektrik enerjisi ilə təmin edirik və ixrac da edirik. İxrac o təqdirdə edilə bilər ki, daxili tələbat tam ödənilsin. Biz indi buna nail ola bilmişik.

Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumu bu sahədə görülmüş işlərə çox yüksək qiymət veribdir. Elektrik enerjisinin əlçatanlıq əmsalına görə Davos Forumu Azərbaycanı MDB məkanında birinci yerə layiq görüb, dünya miqyasında isə ikinci yerdəyik. Biz bu göstəriciyə görə ən inkişaf etmiş ölkələri qabaqlamışıq. Elektrik enerjisinin istehsalının və paylanmasının əsas məqsədi onun müəssisəyə və vətəndaşa çatdırılmasıdır. Əlçatanlıq bu deməkdir. Yəni ki, insanların, müəssisələrin enerjiyə əli çatır və bu əmsala görə biz dünyada ikinci yerdəyik. Bax, budur bizim gördüyümüz işlərin nəticəsi. Ancaq biz əldə edilmiş uğurlarla kifayətlənə bilmərik.

Prezident daha sonra deyib ki, siz "Azərenerji"yə enerji pulunu 100 faiz ödəyirsiniz və yığım da 95 faizdir, bu da, hesab edirəm ki, yaxşı nəticədir.

Əlbəttə ki, gələcəkdə, xüsusilə ucqar dağ kəndlərində enerji təsərrüfatına da böyük diqqət göstərilməlidir. Çünki biz, demək olar ki, bütün şəhərlərdə artıq yeni yarımstansiyaların, transformatorların quraşdırılması nəticəsində problemi həll etmişik, ancaq bəzi kəndlərdə dirəklər köhnədən qalıbdır. Mən o kəndlərdə olarkən görürəm ki, hələ də taxta dirəklər qalmaqdadır. Onları müasir dirəklərə dəyişdirmək üçün əlavə tədbirlər görülməlidir. Paylayıcı xətlər indi tamamilə yenilənibdir. Ona görə enerji təminatını indiki səviyyədə saxlamaq üçün əlbəttə ki, biz daim fəal olmalıyıq və o cümlədən "Azərişıq" daim bu işlərə diqqət yetirməlidir. Çünki bizim tələbatımız artır. Baxın, 2019-cu ildə qeyri-neft sənayemiz 14 faiz artıbdır. Deməli, əlavə enerji gücü lazımdır. Hesab edirəm ki, şəbəkəyəqoşulma bizdə yüksək səviyyədə təmin olunur. Bəzi ölkələrdə bu, böyük problemə çevrilir və açılan müəssisələr ümumi şəbəkəyə qoşula bilmir. Bizdə bu problem yoxdur. Ancaq tələbat artır, əhali artır və artacaq. İndi əhali 10 milyona çatıbdır. İllər keçdikcə bu, 11 milyona, 12 milyona çatacaq. Ona görə bizim şəbəkəmiz buna hazır olmalıdır. Ona görə biz böyük vəsait ayırırıq ki, generasiya güclərini tamamilə təzələyək. Biz indi profisitlə çalışırıq. Ancaq biz gərək generasiya güclərini daim elə vəziyyətdə saxlayaq ki, Azərbaycanda heç vaxt qıtlıq olmasın. Əlbəttə ki, enerji təsərrüfatını normal vəziyyətdə saxlamaq üçün bütün istismar qaydaları gərək yüksək səviyyədə təmin edilsin. 2018-ci ildə baş vermiş qəza böyük dərs olmalıdır.

Bu qəzadan sonra görülmüş tədbirlər öz nəticəsini verməkdədir. Biz yarımstansiyaların dairəvi qaydada birləşdirilməsi nəticəsində özümüzü qəzalardan, qəzaların fəsadlarından qoruyuruq. Qəza hər bir ölkədə baş verə bilər. Ancaq əsas məsələ ondadır ki, bu qəzanın fəsadları hansısa müddət ərzində aradan qaldırılır. Bu dairəvi sistemi biz ona görə yaratmışıq ki, enerji təminatını qısa müddət ərzində təşkil edə bilək. Sizə uğurlar arzulayıram. Əminəm ki, siz bu yüksək etimadı doğruldacaqsınız.

**2019-cu ildə Avropa İttifaqı (Aİ) və Azərbaycan arasında yeni tərəfdaşlıq sazişi ilə bağlı danışıqlarda ciddi irəliləyiş əldə edilib. Bunu Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas deyib.**

# Prezident Azərbaycanın AB üzvlüyü üçün prinsipial şərti qəti və aydın dedi - AB səfiri güzəştə meylli olacaqmı...



***Ramil Hüseynov:** ”Bəlkə də yaxın perspektivdə Aİ geri çəkilməsin, amma sonrakı mərhələdə qurum Azərbaycanın xeyrinə güzəştə gedə bilər”*

Yankauskas qeyd edib ki, sazişin əhəmiyyətli bir hissəsi əvvəlcədən razılaşdırılıb: "Əsasən ticarət müddəaları ilə əlaqəli olan sazişin bəzi hissələri üzərində əlavə iş tələb olunur. 2019-cu ilin sonunda Azərbaycan Nazirlər Kabinetində yeni bir iqtisadi komandanın və Brüsseldə yeni bir Avropa Komissiyasının yaradılması ilə yeni reallıqlar ortaya çıxdı. 19-20 dekabr 2019-cu il tarixlərində Brüsseldən Aİ-nin yüksək səviyyəli nümayəndə heyəti Bakıya gələrək, Azərbaycanın bir sıra əsas dövlət qurumlarının nümayəndələri ilə saziş layihəsinin açıq qalan fəsillərinə dair çox məhsuldar məsləhətləşmələr keçirib. Hər iki tərəf danışıqların tezliklə başa çatması ilə bağlı işləri davam etdirmək üçün güclü siyasi iradələrini bir daha ortaya qoydu".

Avropalı diplomat əlavə edib ki, Avropa Birliyi üçün Azərbaycanla yeni bir sazişin bağlanması gündəliyin əsas prioritetlərindən biri olaraq qalır.

Belə görünür ki, Aİ güzəştə getmək istəmir. Yəni öz şərtlərini sona qədər qəbul etdirmək istəyir. Ancaq Azərbaycanın da prinsipial mövqeyi ortadadır. Xatırladaq ki, Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bu məsələyə aydınlıq gətirdi. Belə ki, ölkə başçısı ilk dəfə sazişin imzalanmasının gecikməsinin iki səbəbini göstərdi. Birincisi, Prezident qeyd etdi ki, Brüsselin şərtlərindən biri Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyünü sürətləndirməkdir. İlham Əliyevin cavabından aydın oldu ki, indiki şərtlər altında Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyü mümkün deyil. Çünki ucuz mallar Azərbaycan bazarını doldura bilər. Azərbaycan rəqabətqabiliyyətli məhsullar istehsal etməlidir ki, xarici mallarla rəqabətə tab gətirə bilsin. Səbəblərdən biri bununla bağlıdır.

*”Bir məqamı da unutmaq olmaz ki, Azərbaycan müstəqil siyasət yeridir”*

Prezident sazişin imzalanmasının yubanmasının ikinci səbəbini də göstərdi. Avropa İttifaqı Azərbaycandan tələb edir ki, başqa ölkələrə qazı hansı qiymətə satırsa, daxili bazarda da eyni qiymətə satsın. Bu, Azərbaycanın maraqlarına uyğun deyil. Çünki yerli əhali və sənaye müəssisələri üçün qazın qiymətləri artarsa, həm narazılıq, həm də yerli məhsulların qiyməti artacaq. Bakı Brüsselin bu şərtini qəbul etmir.

Bundan başqa, Prezident İlham Əliyev ötən ayın sonlarında Rusiyanın "Rossiya-24" televiziya kanalına müsahibəsində sözügedən məsələyə toxunaraq mövqeyini ortaya qoydu: "Bu yaxınlarda Azərbaycan jurnalistləri ilə görüşümdə mən bu məsələlər barədə ətraflı danışmışam, belə ki, bəzən bizim mətbuatımızda bununla bağlı reallıqdan uzaq fikirlər səsləndirilir. Mən bu məsələnin üzərində təfsilatı ilə dayanaraq dedim ki, bizi orada heç gözləmirlər də. Biz hətta namizədlərin siyahısına da daxil deyilik. Həm də Azərbaycan "Şərq tərəfdaşlığı" layihəsində birləşən keçmiş SSRİ ölkələrinin bəzilərindən fərqli olaraq assosiasiya haqqında sazişi imzalamayan ölkədir. Mən onu əvvəldən axıradək oxumuşam. Başa düşdüm ki, bu, saziş deyil. Bu, təlimatdır. Bunlar bizim əməl etməyimiz üçün yuxarıdan göndərilən təlimatlardır. Mən öz komanda üzvlərimə sual verdim. Bu təlimat bizim nəyimizə lazımdır? O, bizə nə verəcək? Burada Azərbaycan üçün hər hansı əməli fayda varmı? Mən şəxsən bunu görmədim. Ona görə də biz Avropa Komissiyasına bunun yerinə bizim üçün faydalı olacaq, Azərbaycan vətəndaşlarına bu addımı nədən ötrü atdığımızı izah edə biləcəyim ikitərəfli saziş üzərində işləməyi təklif etdik. Axı, biz kiminsə xoşuna gəlmək üçün və ya sadəcə ondan bizdə də var demək xətrinə saziş imzalaya bilmərik. Biz bu cür işləmirik. Bizim əldə edəcəyimiz hər hansı saziş, hər hansı razılaşmanın konkret nəticələri olmalıdır. Biz Avropa Komissiyasına da bunu təklif etdik və deməliyəm ki, yeni saziş üzrə danışıqlar bütövlükdə pis getmir. Bəndlərin 90 faizindən çoxu razılaşdırılıb. Lakin razılıq əldə olunmayan bəndlər bizim üçün qətiyyən qəbuledilməzdir. Əgər Avropa İttifaqının mövqeyində dəyişiklik baş verərsə, onda biz nəticəyə hesablanmış danışıqları davam etdirə bilərik".

Bütün bu deyilənlərin fonunda, sözügedən məsələdə Aİ güzəştə meylli olacaqmı?

Məsələyə münasibət bildirən VİP funksioneri Ramil Hüseynovun sözlərinə görə, prinsipcə, Aİ-nin Azərbaycanın xeyrinə güzəştə getməsi mümkündür: "Sadəcə, buna müəyyən zaman lazımdır.

Bəlkə də yaxın perspektivdə Aİ geri çəkilməsin, amma sonrakı mərhələdə qurum Azərbaycanın xeyrinə güzəştə gedə bilər. Çünki Azərbaycanın regionda artan rolu ortadadır. Strateji mövqeyi də göz qabağındadır. Azərbaycan Cənubu Qafqazda ən önəmli strateji mövqeyə malikdir. O baxımdan, Azərbaycanla yeni tərəfdaşlıq sazişi Aİ üçün də çox vacibdir. Hesab edirəm ki, güzəştə getsələr, Avropa bundan qazanacaq. O baxımdan, rəsmi Brüssel nə qədər tez Azərbaycanın xeyrinə güzəştə getsə, bu bir o qədər qurumun xeyrinə olacaq. Bir məqamı da unutmaq olmaz ki, Azərbaycan müstəqil siyasət yeridir. Yəni kimdənsə asılı deyil".

***Vidadi ORDAHALLI***

## 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə bağlı tədbirlər planı təsdiqləndi...

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevin sərəncamı ilə "20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər planı" təsdiq edilib.**



"Trend"in məlumatına görə, sənədə əsasən respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarda 20 Yanvar gününün Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzi kimi qeyd olunması ilə bağlı tədbirlərin keçirilməsi, 20 Yanvar hadisələrinin mahiyyətini əks etdirən konfrans, toplantı və mühazirələrin təşkili, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların, bədii və sənədli filmlərin nümayişi nəzərdə tutulur. 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması planlaşdırılır.

Həmçinin dünya ictimaiyyətinin diqqətini bu faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar hadisələri barədə müxtəlif dillərdə materialların hazırlanması, nəşri və yayılmasının təmin olunması barədə tapşırıqlar verilib.

Tədbirlər planına əsasən, respublikanın bütün təhsil müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs keçiriləcək, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardımlar göstəriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, faciə qurbanlarının xatirəsinə həsr olunan dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12:00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə əlaqədar hüzn əlaməti olaraq Azərbaycanın dövlət bayraqlarının endirilməsi və digər tədbirlər planlaşdırılır.

## Nüşrəvan Səfərov vəzifəsindən azad edildi



**Baş Polis İdarəsinin Dövlət Yol Polis İdarəsinin rəisi, polis polkovniki Nüşrəvan Səfərov vəzifəsindən azad edilib.**

"Trend"in məlumatına görə, bununla bağlı müvafiq əmr imzalanıb. Onun yaş həddi ilə əlaqədar təqaüdə göndərildiyi deyilir.

# 20-25 il eyni dairədən seçkiyə qatılan namizədlərlə bağlı ictimai rəydə ən müxtəlif fikirlər...

**Parlament seçkilərinin keçirilməsi ilə bağlı vacib olan prosedurlar, demək olar ki, həyata keçirilmək üzrədir. Artıq namizədlərin qeydiyyata alınması prosesinin başa çatmasına da sayılı günlər qalıb. Bu da onu deməyə əsas verir ki, seçkidə iştirak edəcək namizədlərin kimliyi artıq bəllidir.**

***Rauf Zeyni:*** *"Bu da faktdır ki, uzun müddət eyni yerdən seçilən millət vəkillərinin bəziləri illərlə seçiciləri ilə görüşmürlər"*

Bunun özü də maraqlı detalları üzə çıxarmış olur. Birincisi, seçkiyə çoxlu sayda yeni və əsasən də gənc insan qoşulub.

Bundan əlavə, dəfələrlə eyni dairədən seçilmiş bir çox namizədin təkrarən həmin dairədən namizədliyini irəli sürməsi halları da baş verir. Buna da seçicilərin münasibəti birmənalı deyil. Məsələn, 20 il bir rayonun deputatı olmuş şəxsin yenidən həmin rayondan deputatlıq iddiasını ortaya qoyması ilə bağlı hallara çox mənfi münasibət bəslənir. Seçicilər sosial şəbəkələrdə yazırlar ki, deputatlar yenilənsə yaxşıdır. Çünki çoxları keçmiş deputatların dəfələrlə seçilməsinə baxmayaraq, bölgədə heç bir iş görmədiyi qənaətindədir. Bəs onda həmin millət vəkilləri niyə bir yeri özləri üçün sanki vakant kimi qəbul edir və gücünü başqa dairədən sınamaq istəmir? Və ya bu dəfə namizəd olmamaqla gənclərə yol açmağı düşünmür? Ən maraqlısı isə budur ki, belə iddiada olanların, demək olar ki, hamısı parlamentin buraxılmasına səs vermiş millət vəkilləridir.

Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məsələyə iki aspektdən yanaşmaq olar: "Birincisi, qanunun tələbləri, ikincisi isə həmin deputatların mənəvi haqqının olub-olmaması. Bilirsiniz ki, deputat olmaq istəklə reallaşmır. Nə də ki, kimsə adamı o posta təyin edə bilir. Bu, seçkili prosesdir. Seçicilərin etimadını qazanan adama 30 il də deputat olmağa qanun icazə verir. Amma siz də bilirsiniz ki, bir adamın uzun müddət eyni vəzifədə olmasını cəmiyyət birmənalı qarşılamır. Millət vəkili yükünü daşımağa da belə münasibətlər var və bu gizlin deyil. Elə adamlar var ki, seçicilər həmin adamı neçə dəfə seçilməsindən asılı olmayaraq, yenə də millət vəkili görmək istəyirlər. Təəssüflər olsun ki, bu, bütün millət vəkillərinə aid deyil. Bu da faktdır ki, uzun müddət eyni yerdən seçilən millət vəkillərinin bəziləri illərlə seçiciləri ilə görüşmürlər.



**Seçildikləri dairəyə getmək yalnız 5 ildən bir yada düşür. Belə adamların problemləri var. Kim seçicilərin etimadını qazanırsa, onun uzun müddət deputat olmasına heç bir məhdudiyyət yoxdur. Bu gün namizədliyini irəli sürən şəxs seçicilərin etimadını qazana bilirsə, qanun ona dəfələrlə eyni dairədən seçilməyə qadağa qoymur. Bu məsuliyyəti də seçilənlər öz üzərində hiss etməlidirlər. Seçkinin də fəlsəfəsi budur ki, sən seçicinin rəğbətini qazanasan".**

***Məhəmmədəli QƏRİBLİ***

# 21 siyasi partiyanın iştirakı - 9 fevral seçkisinin çoxpartiyalılığı təmin olundumu...

**Azərbaycanda fevralın 9-na təyin edilmiş növbədənkənar parlament seçkilərində iştirak üçün müraciət edən siyasi partiyaların sayı 21-ə çatıb. Mərkəzi Seçki Komissiyasının (MSK) keçirilən növbəti iclasında Vahid Azərbaycan Partiyasının səlahiyyətli nümayəndəsi qeydə alınıb.**



Bundan əvvəl Vətəndaş və İnkişaf Partiyası, Yeni Azərbaycan Partiyası, Ümid Partiyası, Vətəndaş Həmrəyliyi Partiyası, Böyük Quruluş Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası, Azərbaycan Demokrat Partiyası, Böyük Azərbaycan Partiyası, Ana Vətən Partiyası, Azərbaycan Təkamül Partiyası, Müsavat Partiyası, Azərbaycan Sosial Rifah Partiyası, Vəhdət Partiyası, Demokratik İslahatlar Partiyası, Azərbaycan Liberal Demokrat Partiyası, Azərbaycan Demokratik Maarifçilik Partiyası və Müasir Müsavat Partiyasının səlahiyyətli nümayəndələri qeydə alınıb.

***Məhərrəm Zülfüqarlı:*** *"Hesab edirəm ki, 21 partiyanın seçkiyə qatılması çoxpartiyalılığın təmin olunması baxımından yetərlidir"*

Görünən odur ki, Azərbaycanda bir çox partiya, əsasən də tanınmış siyasi təşkilatlar seçkilərdə iştirak edəcəklər. Düzdür, bu heç də ölkədəki bütün siyasi partiyaların seçkidə iştirak etməsi demək deyil. Ancaq nəzərə almaq lazımdır ki, qeydiyyatdan keçən partiyaların heç də hamısı fəal deyil. İctimaiyyətdə elə də tanınmırlar. Bütün hallarda, 21 partiyanın iştirakı parlament seçkisində çoxpartiyalılığı təmin edirmi?

Məsələyə münasibət bildirən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlının fikrincə, 21 partiyanın seçkiyə qatılması bu baxımdan yetərli hesab oluna bilər: "Əvvəla çoxpartiyalı sistem bir çox ölkədə, o cümlədən, Azərbaycanda da var. Bütövlükdə, bu təcrübə dünyada geniş yayılıb. Məsələn, ABŞ-da çoxlu sayda partiya olsa da, daim mübarizədə 2 partiya rəqib kimi ortada olur - Respublikaçılar Partiyası və Demokratlar Partiyası. Bu, Birləşmiş Ştatların xüsusiyyətlərinə uyğundur. Azərbaycanda 55-dən artıq partiya olsa da, real mübarizə aparan partiyaların sayı 5-10-dur. İndi 21 partiya parlament seçkilərində iştirak etməklə bağlı qərar veribsə, buna sevinmək lazımdır.

*"Azərbaycanda 55-dən artıq partiya olsa da, real mübarizə aparan partiyaların sayı 5-10-dur"*

**Deməli, irəliləyiş var. Bu, Azərbaycanda çoxpartiyalı sistemin inkişafını göstərir. Kampaniya aparılanda, sonra seçkilərdəki rəqabətdə bunların nəyə qadir olduğunu görəcəyik. Bütövlükdə, hesab edirəm ki, 21 partiyanın seçkiyə qatılması çoxpartiyalılığın təmin olunması baxımından yetərlidir".**

***Vidadi ORDAHALLI***

# Azərbaycanla İranın dəmir və quru yollar strategiyası Ermənistanı regional əməkdaşlıq xəritəsindən silinmək həddinə salır...

**Ötən dövr ərzində Azərbaycanın nəqliyyat sahəsində yaratdığı infrastruktur artıq ölkəyə böyük dividendlər gətirməkdədir. Söhbət konkret olaraq Azərbaycan üzərindən yükdaşımaların çoxalmasından, ölkəmizlə bu sahədə əməkdaşlığı dərinləşdirmək istəyənlərin sayının artmasından gedir.**

Qeyd edilən istiqamətdə Azərbaycan üçün ən önəmli addımlardan biri də budur ki, baş verənlər işğalçı Ermənistanın təcridinin daha da dərinləşməsinə rəvac verir. Belə ki, Azərbaycana artan maraq Ermənistanı tam arxa plana keçirir.

Hazırda bu xüsusda diqqət çəkən məqamlardan biri qonşu İranın Azərbaycanla dərinləşən işbirliyidir. Belə vəziyyət Ermənistanda xüsusi narahatlıqla qarşılanır. Bu ölkənin "tert.am" portalı yazır ki, İranın Azərbaycanla əməkdaşlığını genişləndirməsi Ermənistanın, yumşaq şəkildə deyilsə, yaddan çıxması ilə müşayiət olunur:"İran üçün indi daha çox Azərbaycanla işbirliyini genişləndirmək prioritetdir. Ermənistanla əvvəl imzalanmış layihələrdən isə hələ də bir xəbər yoxdur. Bu gedişlə həmin layihələr, əvvəllər olduğu kimi, sadəcə kağız üzərində qalacaq". Ekspertlər də bildirir ki, erməni tərəfinin narahatlığı əbəs deyil. Çünki İran üçün həqiqətən də Azərbaycanla əməkdaşlıq ön planda yer alır. İranın yollar və şəhərsalma naziri Məhəmməd İslaminin bu fonda açıqlamaları qeyd edilənləri əyani surətdə təsdiqləyir. Nazirin sözlərinə görə, yaxın gələcəkdə İranla Azərbaycanı yalnız dəmir yolu deyil, həmçinin avtomobil yolu da birləşdirəcək. O bildirib ki, Ərdəbil-Astara magistral yolu hazırda genişləndirilir və yaxın günlərdə başa çatacaq. Bundan başqa, Ənzəli limanından da Astaraya çəkilən yolun inşası davam etdirilir. Bu yollar Azərbaycanla İran arasındakı nəqliyyat əlaqələrini inkişaf etdirəcək. İki ölkə arasında nəqliyyat əlaqələrinin genişlənməsi ticarət dövriyyəsinin artmasına və tranzit imkanlarının genişlənməsinə böyük imkanlar yaradır. Nazir nəzərə çatdırıb ki, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinə daxil olan bu yollardan təkcə İranla Azərbaycan deyil, regionun digər ölkələri də faydalanacaq.

Qeyd edək ki, Azərbaycan 204 kilometrlik Bakı-Astara yolunu yenidən quraraq 2018-ci ildə istifadəyə verib. Hazırda bu yol vasitəsilə İran Rusiyanın Dağıstan respublikası ilə ticarət əlaqələrini davam etdirir. Qarşıdakı dövr ərzində bu istiqamətdə əməkdaşlığın daha da dərinləşməsi nəzərdə tutulur. Belə ki, bir neçə gün əvvəl İranın Mazandaran vilayətinin Ticarət və Sənaye Palatası ilə Rusiyanın Samara vilayətinin administrasiyası arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Buna müvafiq olaraq İran və Rusiya birbaşa Azərbaycan üzərindən ticarət, kənd təsərrüfatı və sənaye məhsullarının istehsalı sahəsində əməkdaşlığı daha da dərinləşdirəcək.

Qeyd edək ki, Astara (Azərbaycan)-Astara (İran) dəmir yolu xətti istismara verildikdən sonra İranla Rusiya arasında ticarət əlaqələri daha da intensiv xarakter alıb. İmzalanmış müqaviləyə əsasən, yenə bütün idxal-ixrac əməliyyatları Azərbaycan üzərindən həyata keçiriləcək ki, bu da ölkəmizin tranzit gəlirlərinin artmasına səbəb olacaq. Xatırladaq ki, "Şimal-Cənub" dəhlizinin tərkib hissəsi olan Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xəttinin Qəzvin-Rəşt hissəsi artıq istifadəyə verilib. Yolun Rəşt-Astara hissəsində isə inşaat işləri davam edir. Bu layihə başa çatdıqdan sonra İrandan Rusiyaya və əks istiqamətə yükdaşımanın həcmi də artacaq.



Bu arada daha bir maraqlı məqam ondan ibarətdir ki, Hindistanın Mumbay, Şri-Lankanın Kolombo və Banqladeşin Çittaqonq limanlarının nümayəndələrindən ibarət tədqiqat qrupu iki ay ərzində Azərbaycana məxsus "ADY Konteyner" MMC-də tədqiqat işləri aparıb. Tədqiqatın məqsədi Azərbaycanın da iştirakçısı olduğu "Şimal-Cənub" dəhlizinin imkanlarının araşdırılması, bu dəhlizə əlavə yüklərin cəlb edilməsi perspektivlərinin öyrənilməsi olub. Tədqiqatçılar xüsusi olaraq həmin limanlardan seçilib. Belə ki, bu limanların yerləşdiyi ölkələr "Şimal-Cənub" dəhlizinə əlavə yük dövriyyəsinin cəlb olunması baxımından böyük önəm kəsb edir. Missiyanın yekun tədbiri zamanı tədqiqatçılar öz araşdırmalarının nəticələrini təqdim edərək "Şimal-Cənub" dəhlizinin imkanlarının genişləndirilməsi üzrə tövsiyələrini veriblər. Belə vəziyyət Azərbaycan üzərindən yükdaşımaların həcminin artırılması istiqamətində daha bir mühüm addım sayılır. Hindli ekspert Şoaib Xan da vurğulayır ki, sözügedən nəqliyyat dəhlizi enerji cəhətdən məhdud olan Hindistan kimi, həmçinin enerji istehsal edən ölkələrə və tranzit ölkələrə də böyük fayda verəcək: "Şimal-Cənub" nəqliyyat dəhlizi quru və dəniz yolu ilə çox multimodal nəqliyyat şəbəkəsidir. Bu şəbəkə Hind okeanını Fars körfəzi, Xəzər dənizini, Rusiyanı Şimali Avropa ilə birləşdirəcək. "Şimal-Cənub" Hindistanı Avrasiya regionunda strateji və iqtisadi məqsədlərində oyun dəyişdiricisi edəcək.

Hindistan bu nəqliyyat dəhlizi vasitəsilə Orta Asiyaya bağlantısının uzadılması ilə bağlı imkanları araşdırır". Bütün bunlar qarşıdakı dövr ərzində Azərbaycanla yükdaşımalar sahəsində beynəlxalq əməkdaşlığın miqyasının daha da genişlənəcəyini bəri başdan deməyə əsas verir.

***Nahid SALAYEV***

# Paşinyan BVF-ni də saxtalaşdırır - Ermənistan adambaşına ÜDM üzrə Azərbaycanı üstələyə bilər?

**Ermənistanın Baş naziri Nikol Paşinyan özünün "Facebook" səhifəsində ölkəsinin Cənubi Qafqaz dövlətləri arasında iqtisadiyyat sahəsində lider olduğuna dair paylaşım edib: "Əziz insanlar, xatırlayın, parlamentin kürsüsündən dedim ki, 2019-cu ilin sonuna adambaşına düşən ÜDM-in həcminə görə Gürcüstanı, 2020-ci ildə isə Azərbaycanı üstələyəcəyik. 2019-cu ilin sonunda Cənubi Qafqazın lider ölkəsinə çevrilməklə həm Gürcüstanı, həm də Azərbaycanı geridə qoyduq ".**



***Fikrət Yusifov:** "...Azərbaycanda adambaşına 19.2 min dollar ÜDM düşür, Ermənistanda isə bu rəqəm adambaşına 11.8 min dollar təşkil edir"*

Qeyd edək ki, Paşinyan bu məlumatı Beynəlxalq Valyuta Fondunun (BVF) yaydığı məlumata istinadən bildirib. Ermənistan mətbuatının yaydığı həmin məlumatda qeyd olunur ki, Ermənistanda adambaşına düşən ÜDM-in xüsusi çəkisi 4.76 min dollar, Azərbaycanda bu göstərici 4.72 min dollar, Gürcüstanda 4.63 min dollar təşkil edib.

Ermənistanın iqtisadiyyatı Azərbaycanla müqayisəolunmaz dərəcədə zəifdir. Belə bir ölkənin ÜDM-nin çəkisinə görə Azərbaycanı keçməsi nə dərəcədə doğrudur?

Sabiq maliyyə naziri Fikrət Yusifov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Paşinyan bu məsələdə təhrifə yol verib: "Paşinyanın siyasətdə diletant olduğu bəlli idi. Bu açıqlaması ilə sübut etdi ki, iqtisadiyyatdan, ümumiyyətlə, xəbərsizdir. Belə bir müqayisələr adətən ümumdaxili məhsulun alıcılıq qabiliyyəti pariteti əsasında aparılmalıdır. Burada ÜDM-in, sadəcə, nominalı deyil, alıcılıq qabiliyyəti əsas götürülür.

Bu nə deməkdir? Görürsünüz ki, Paşinyan da bu müqayisəni milli valyutalarla deyil, dollarla aparıb. Onda belə çıxır ki, biz Azərbaycanda istehsal olunan ümumdaxili məhsula ABŞ bazarındakı alıcılıq qabiliyyəti baxımından yanaşmalıyıq. Çünki dollar ABŞ-a aid olan milli valyutadır. Dollarla danışırıqsa, ölçü bu olmalıdır. Milli valyuta ilə danışsaq isə başqa kriteriyaları əsas götürməliyik. Hətta bu baxımdan yanaşanda belə, Azərbaycan Ermənistanı geridə qoyur. BVF-nin ən son hesabatında belə qeyd edilir ki, Azərbaycanda adambaşına 19.2 min dollar ÜDM düşür, Ermənistanda isə bu rəqəm adambaşına 11.8 min dollar təşkil edir. Yəni bu rəqəmin özü sübut edir ki, Paşinyan yalan danışır. Bundan əlavə, Ermənistanın xarici borcu da Azərbaycanla müqayisədə çoxdur. Bütün bunlar Ermənistanın bizdən çox geridə olmasını şərtləndirir".

**Qeyd edək ki, Ermənistan KİV-i həmin ölkənin Baş naziri Nikol Paşinyanın bir gün əvvəl dediklərinə redaktə etmək məcburiyyətində qaldığını bildirib. O deyib ki, adambaşına düşən ÜDM-in həcminə görə Ermənistan Qafqazda yalnız Gürcüstanı keçir, Azərbaycanı yox.**

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyanın saxta demokratiyasını ifşa edən daha bir fakt - Süleymani barədə xəbərə görə "KQB" jurnalisti həbs etdi

**Ermənistanın Milli Təhlükəsizlik Xidməti (MTX) İrana qarşı apardığı "uğurlu" əməliyyata görə baş nazir Nikol Paşinyanın ABŞ prezidenti Donald Trampı təbrik etməsi ilə bağlı yalan məlumatlar yayan saxta "Facebook" səhifəsinin sahibini aşkar edib.**



***Məhəmməd Əsədullazadə:** "Bir gəncin adi yazısına görə həbs edilməsi Paşinyan rejiminin dözümsüzlüyünün və avtoritarizmə meylliyinin sübutudur"*

Bu barədə Ermənistan MTX-nin mətbuat xidməti məlumat yayıb.

**Məlumatda bildirilir ki, bu işi törədən saxlanılıb: "Aparılmış əməliyyat-axtarış tədbirləri yolu ilə yanlış məlumatın yayıldığı "Diana Arutyunyan" adlı ermənidilli saxta səhifənin sahibinin kimliyi müəyyən edilib. O, MTX-yə gətirilib və gördüyü əməllə bağlı izahat verib".**

MTX-nin məlumatında o da qeyd edilib ki, saxlanılan şəxslə bağlı videogörüntü də yerləşdirilib: "Videogörüntüdə həmin şəxs yalan məlumatları Ermənistanın nüfuzuna xələl gətirmək üçün yaydığını deyib. Belə ki, saxlanılan şəxs müxalifətçi baxışa malikdir və sabiq prezident Robert Köçəryanın həbsini ədalətli hesab etmir".

Məlumat üçün qeyd edək ki, bundan bir qədər əvvəl N.Paşinyan onun adından ermənidilli "Facebook" səhifəsində ABŞ Prezidentinə ünvanlanmış yalançı təbrikin yayıldığını və bu təbrikin saxta olduğunu bildirib. Hətta erməni baş nazir bir qədər də irəli gedərək təbrik məktubunun Azərbaycan mediası tərəfindən trendə çevrildiyini və buradan da İran KİV-nə ötürülərək tirajlandığını iddia edib.

Məsələnin maraqlı tərəfi odur ki, Paşinyan hakimiyyətə gələndən bəri ölkədə demokratiyanın, söz azadlığının inkişafından, guya mövcud hakimiyyətin Ermənistanda buna hərtərəfli şərait yaratmasından dəm vurur. Belə olan halda haqlı olaraq ortaya bir sıra suallar çıxır. Yəni, bu nə demokratiyadır ki, jurnalisti yazdığına görə tuturlar? Budurmu Paşinyan hakimiyyətə gələndən sonra ölkədəki demokratiya?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə aspektdən yanaşdı: "Ermənistanda Nikol Paşinyanın hakimiyyətə gəlməsi bu o demək deyil ki, ölkədə demokratiya qələbə çalıb və burada tam demokratik sistem qurulacaq. Paşinyanın hazırda əsas mübarizə apardığı sahə mətbuatdır.

Çünki, mətbuat onun idarəçilikdə səmərəsiz olduğunu sübutlarla ortaya qoyur və bu da onun reytinqini aşağı salır. Bundan əlavə, baş nazir fikir və söz azadlığına qarşı da mübarizə aparır. Məhz onun haqqında bir paylaşım edən şəxsi həbs etdirməklə bunu bir daha sübut etdi. Qeyd edim ki, Paşinyan ümumiyyətlə siyasətlə demokratiya anlayışını fərqli qavrayır. O siyasətdə əsasən despotizmə əl atmaqdadır. Göründüyü kimi, bir gəncin adi yazısına görə həbs edilməsi Paşinyan rejiminin dözümsüzlüyünün və avtoritarizmə meylliyinin sübutudur. Hesab edirəm ki, artıq Ermənistan vətəndaşları Paşinyanın sələfinin davamçısı olduğunu görürlər.

Serj Sarkisyan kimi Ermənistanın idarəçiliyini daha da "irəli" aparır. Ermənilər bu vəziyyətə dözməyəcəklər və düşünürəm ki, mütləq bir gün bütün bunlara görə Paşinyandan hesabat tələb edəcəklər. Bu da Paşinyana baha başa gələcək. Paşinyanın siyasəti heç də demokratiyanın bərqərarı və inkişafı deyil. Onun ən başlıca məqsədi ölkədə avtoritar bir rejim qurmaqdır".

***Vidadi ORDAHALLI***

# Tiflisdə ortaq Azərbaycan - Gürcüstan Universitetinin yaradılmasına mane olan erməni faktoru...

**Gürcüstanda yaşayan soydaşlarımızın ali təhsil alması sahəsində ciddi problemlərin mövcud olduğu məlumdur. Uzun illərdir Gürcüstandakı soydaşlarımızın ali təhsil almaları sahəsində mövcud problem Azərbaycan dövlətini ciddi düşündürür.**

Bir müddət əvvəl Gürcüstan və Azərbaycan dövlətlərinin ortaq ali məktəb yaradacaqları ilə bağlı fikirlər gündəmə gəlmişdi. Bunun yalnız ictimaiyyət arasında gəzən söz-söhbət olmadığı artıq məlumdur.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov bir müddət əvvəl bildirmişdi ki, Azərbaycan-Gürcüstan birgə ali məktəbinin yaradılması ilə bağlı danışıqlar gedir. "Gürcüstandakı azərbaycanlı gənclərin Azərbaycanın ali məktəblərində təhsil almaları üçün kvotaların ayrılması üçün razılıq əldə edilib. Hazırda bu istiqamətdə işlər aparılır. Gələn ildən bu kvotaların ayrılması nəzərdə tutulur".

Onun sözlərinə görə, Təhsil Nazirliyi və digər qurumlar Gürcüstanda azərbaycanlıların təhsil problemlərinin həlli üçün işlər aparır: "Təhsil Nazirliyi Gürcüstana dərsliklər göndərir. Hər il də bu dərsliklərin sayı artırılır. Azərbaycandilli məktəblərdə müəllim yaşlanması və çatışmazlığı problemi var".

Əldə etdiyimiz məlumata görə, Gürcüstanla Azərbaycanın birgə yaratmaq istədikləri universitetin təşkilinə mane olan qüvvələr var. Bu qüvvələrin Gürcüstan vətəndaşı olan ermənilər olduğu qeyd edilir. Yəni ermənilərin də həmin ali məktəbdə təhsil almaqda israrlı olduğu deyilir.

## *Kamran Əsədov: "Düşünürəm ki, Azərbaycanla Gürcüstanın birgə ali məktəb yaratmaq cəhdləri alınacaq və ona heç bir qüvvə mane ola bilməyəcək"*



Tanınmış təhsil eksperti, tarix üzrə fəlsəfə doktoru Kamran Əsədov bizimlə söhbətində bu ali məktəbin yaradılmasının vacibliyini qeyd etdi. O bildirdi ki, ermənilərin bu işə mane olması mümkün deyil. "İlk növbədə qeyd edim ki, azərbaycanlılar 2019-cu ildə Gürcüstanın ali məktəblərinə milli azlıqlar üçün nəzərdə tutulmuş "1+4" proqramı üzrə qəbul olunanlar arasında birinci yerdədirlər. Azərbaycanlı gənclərin 253 nəfəri Gürcüstan Texniki Universitetinin, 235-i İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin, 192-si isə İlya Dövlət Universitetinin hazırlıq kursuna qəbul olunub. Daha 49 gənc soydaşımız Gürcüstan Tibb Universitetinin, 34-ü Suxumi Dövlət Universitetinin, 6-sı İ.Qoqebaşvili adına Telavi Dövlət Universitetinin, 5-i A.Tsereteli adına Kutaisi Dövlət Universitetinin, 5-i D.Ağmaşanebeli adına Gürcüstan Milli Müdafiə Akademiyasının, 3-ü Avroregional Təhsil Universitetetinin, 3-ü Ş.Rustaveli adına Batumi Dövlət Universitetinin tələbələridir. Amma bu rəqəmlər olduqca azdır. Nəzərə alsaq ki, Gürcüstanda 500 minə qədər azərbaycanlı yaşayır, bu rəqəmlər Azərbaycandilli kadr probleminin həlli üçün yetərli deyil. Gürcüstandakı azərbaycanlılar - dörd milyondan az əhalisi olan ölkənin 300 minə yaxın sakini. Azərbaycanlı icma əsasən Kvemo Kartli regionunda kompakt şəkildə yaşayır - özlərinə məxsus həyatlarıyla, ölkə əhalisinin böyük hissəsinin diqqətindən kənarda, gürcü cəmiyyətindən faktiki təcrid olunmuş vəziyyətdə yaşayırlar. Apardığımız araşdırmalar göstərir ki yerli məktəblərdə üç əsas çatışmazlıq var: gürcü dili tədrisinin aşağı səviyyədə olması, ümumi təhsilin aşağı səviyyədə olması, gürcü məktəbində təhsil çox vaxt problemin həlli deyil, yeni problemlərin yaradılmasıdır. Misal üçün Kvemo Kartlidə, ümumilikdə, 78 məktəb var. Onlardan 58-i qeyri-gürcü məktəbidir. Uşaqlar burada əsasən Azərbaycan və ya rus dilində təhsil alırlar. Qeyri-gürcü məktəblərində gürcü dili birinci sinifdən tədris olunur. Amma şagirdlərin əksəriyyəti məktəbi gürcü dilində elementar ifadələri öyrənmədən bitirirlər. Birincisi, gürcü dilinə həftədə cəmi beş dərs saatı ayrılıb. Bu informasiya uşaqların niyə məktəbi gürcü dilində kəlmə kəsmədən bitirdiklərini anlamaq üçün yetərli ola bilərdi. Amma ikinci səbəb də var - dərslik problemi. Dərsliklər keyfiyyətsiz hazırlanıb, amma hətta onlar da tapılmır. Araşdırmalarımız göstərir ki, uşaqlar bir neçə il davamlı olaraq kitabları bir-birinə ötürürlər və yeni şagirdlər artıq oxunmaz hala gələn kitablardan istifadə etməli olurlar. Amma hətta bu iki səbəb də ən əsas problem deyil, ən böyük çətinlik yerli spesifik tələblərə cavab verməyən pedaqoqlardır. Belə olan halda, təbii ki, Azərbaycan dilində ayrıca universitetə ehtiyac var".

**O təəssüflə qeyd etdi ki, getdikcə daha çox azərbaycanlı valideyn uşaqlarını gürcü məktəblərinə qoyur. Bunun səbəbinin də gələcəkdə övladı ali təhsil almaq, yaxşı iş tapmaq, siyasətçi, nazir ola bilmək şansı qazanmaq olduğunu deyən K.Əsədov hesab edir ki, bu da doğma dilimizin itibbatması ilə nəticələnir. "Bütün bu problemlərin həlli üçün Gürcüstanda Azərbaycan dilində universitetin olması olduqca müsbət addımdır. Bu, Azərbaycandilli kadrların yetişməsinə, Azərbaycan məktəblərinin kadra olan ehtiyacının aradan qalxmasına gətirib çıxaracaq. Düşünürəm ki, Azərbaycanla Gürcüstanın birgə ali məktəb yaratmaq cəhdləri alınacaq və ona heç bir qüvvə mane ola bilməyəcək" - deyə mütəxəssis qeyd etdi.**

*İradə SARIYEVA*

# ABŞ-İran ziddiyyətlərinin həllində Bakının vasitəçilik perspektivi - Bakı görüş yeri kimi...

**Məlum olduğu kimi, yanvarın 3-də Bağdad hava limanının raket zərbələrinə məruz qalması nəticəsində İran İnqilab Keşikçiləri Korpusunun Qüds Xüsusi Qüvvələrinin rəhbəri general Qasım Süleymani öldürülüb. Pentaqon generalın öldürülməsinə görə məsuliyyəti öz üzərinə götürdü.**



***Fikrət Sadıqov:** ”Düşünürəm ki, bu kontekstdə bizim vasitəçiliyimiz hər hansı müsbət nəticəyə gətirə bilər”*

Qeyd edilir ki, əməliyyatın məqsədi gələcəkdə İran tərəfindən hücumların qarşısını almaq olub.

1998-ci ildən "Sepah"ın Qüds Briqadasına rəhbərlik edən Q.Süleymaninin ölümü dünyada yeni müharibə ocağının yaranmasına səbəb olacaq kimi fikirlər dolaşmaqdadır.

O da məlumdur ki, Q.Süleymaninin İraqda öldürülməsi Trampın birbaşa əmri əsasında həyata keçirilib və Yaxın Şərqdə gərginliyin artmasına öz təsirini göstərəcək. Artıq ABŞ-İran münasibətlərində gərginlik daha da kəskinləşib. Aydın məsələdir ki, Süleymaninin qətli iki dövlət arasında qarşıdurmanın səngiməsinə deyil, artmasına səbəb olacaq.

Türkiyə və Rusiya prezidentləri də bəyanat verdilər ki, bu hadisə iki ölkə arasındakı gərginliyi artıracaq. Bütün bunlara baxmayaraq, tərəflər arasında danışıqların bərpasını da istisna etmək olmaz. Nəzərə almaq lazımdır ki, İran qədim dövlətçilik ənənələrinə malikdir. 1979-cu ildən bəri tərəflər arasında münasibətlər nə qədər gərgin olsa da, bu, müharibəyə gətirib çıxarmayıb.

Bu baxımdan Azərbaycanın iki tərəf arasında vasitəçilik etmək məsələsi gündəmə gəlir. Nəzərə almaq lazımdır ki, Azərbaycan qarşılıqlı anlaşma və mehriban qonşuluq prinsipləri əsasında yaşamağın tərəfdarıdır. O baxımdan lazım gələrsə, rəsmi Bakı tərəflər arasında vasitəçi ola bilər. Çünki Azərbaycan etibarlı tərəfdaşdır və ölkəmizə etimad var. Bu mənada, Azərbaycan arta biləcək gərginliyin qarşısını almaq üçün öz imkanlarından istifadə edə bilər. Nəzərə almaq lazımdır ki, Azərbaycan NATO ilə Rusiya arasında gərginliyin azalmasında rol oynayıb. Dəfələrlə tərəflər Bakıda bir araya gəliblər. Bu baxımdan, ABŞ-İran ziddiyyətlərinin həllində Bakının vasitəçilik perspektivini ekspertlər necə dəyərləndirirlər?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən keçmiş diplomat, politoloq Fikrət Sadıqov Azərbaycanın tərəflər arasında vasitəçilik perspektivini istisna etmədi: "Əvvəla, bütün hallarda, ABŞ-la İran arasında gərginliyi azaltmaq üçün, təbii ki, vasitəçiyə ehtiyac var. Beynəlxalq münasibətlər praktikasında, ümumiyyətlə, diplomatiya tarixində həmişə belə hallarda vasitəçilik gündəmə gəlir.

*”Ancaq gərək hər iki ölkə buna razı olsun”*

Ancaq vasitəçilik real qüvvələrdən ibarət olmalıdır. Vasitəçiliyi bir sıra dövlətlər edə bilər. O cümlədən, qonşu dövlətlər də bu işə fayda verə bilər. Xüsusən də Azərbaycan bu işdə fəal rol oynaya bilər. Çünki Azərbaycanla İran qonşu dövlətlərdir. Biz İranla bir sıra layihələr həyata keçiririk. Eyni zamanda, bizim ABŞ-la da münasibətlərimiz kifayət qədər yaxındır. İki ölkə arasında partnyorluq münasibətləri var. O üzdən, biz bunu yüksək qiymətləndiririk. Azərbaycan ABŞ-la İran arasında vasitəçilik missiyasını üzərinə götürə bilər. Ancaq gərək hər iki ölkə buna razı olsun. Sözügedən dövlətlər buna razılaşsa, Azərbaycan öz rolunu icra edə bilər. Çünki İran-ABŞ gərginliyinin alovlanması bizim maraqlarımıza da ziyandır.

Digər tərəfdən, təcrübə göstərir ki, Bakı həmişə müxtəlif qütblərin nümayəndələrinin burada yığışmasına şərait yaradıb. Bir sıra görüşlər keçirilib. Düşünürəm ki, bu kontekstdə bizim vasitəçiliyimiz hər hansı müsbət nəticəyə gətirə bilər".

***Vidadi ORDAHALLI***

# ABŞ vətəndaşları üçün Azərbaycanda nə təhlükə var ki...

**ABŞ-ın Azərbaycandakı Səfirliyi öz ölkəsinin vətəndaşlarına xəbərdarlıq edib. Bu barədə məlumat səfirliyin rəsmi saytında yerləşdirilib. Səfirlik ABŞ vətəndaşlarını ehtiyat tədbirləri görməyə çağırıb: "Yaxın Şərqdə gərginlik artır. Bu, xaricdəki ABŞ vətəndaşları üçün təhlükə yarada bilər.**




***Arzu Nağıyev:** ”Burada Azərbaycanın stabilliyi və təhlükəsizliyi müzakirə mövzusu ola bilməz”*

Bu səbəbdən səfirliyin personalı səfərləri minimuma endirmək barədə göstəriş alıb".

Amerikalılara öz ətraflarına diqqət yetirmək, turistlərin toplandığı yerlərdə sayıq olmaq, şəxsi təhlükəsizlik tədbirlərini gücləndirmək, sənədləri əlçatan yerlərdə saxlamaq tövsiyə edilib.

Bundan əlavə, fövqəladə vəziyyətdə ABŞ Səfirliyinin və ABŞ Dövlət Departamentinin telefonlarına zəng etmək tövsiyə olunur.

Məlumdur ki, Azərbaycan dünyanın ən stabil və təhlükəsizliyin tam təmin olunduğu ölkələrindən sayılır. Təsadüfi deyil ki, məhz buna görə dünyanın əhəmiyyətli və məxfi sayılan görüşlərinin keçirildiyi məkan kimi dəfələrlə Azərbaycan seçilib. Belə olan təqdirdə, Azərbaycanda olan ABŞ vətəndaşlarına hər hansı təhlükə ola bilərmi, yoxsa ABŞ bu tədbirləri adi prosedur qaydalarına uyğun şəkildə edir?

Təhlükəsizlik üzrə ekspert Arzu Nağıyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, dünyada təhlükəsizliyə təhdidin qarşısının alınması üçün belə praktikalar tətbiq edilir: "Yaranmış vəziyyət yalnız Azərbaycanla bağlı deyil. Məlum məsələdir ki, ABŞ-la İran arasında olan gərginlik bütün dünyada artan faza ilə davam edir. Bu, tək Azərbaycanda yerləşən ABŞ Səfirliyinin bəyanatı deyil. Bütün dünyada nə qədər ABŞ səfirlikləri varsa, onların hər birinə belə bildiriş göndərilib və səfirliklər də həmin məlumatı öz saytlarında yerləşdiriblər. Əsas məsələ hərbçilərlə bağlıdır. Bildiyiniz kimi, tərəflər bir-birinə qarşı ittihamları davam etdirir. Cənab Tramp 52 obyekti vurmaqla bağlı verdiyi bəyanat gündəmdədir. Bununla Tramp İranın yadına salır ki, vaxtilə 52 ABŞ diplomatını onlar 444 gün girov saxlayıblar. Eyni zamanda, general Qasım Süleymaninin ölümü ilə bağlı İran tərəfi də qırmızı bayraq qaldırmaqla qisas hissinin olduğunu aydın bəyan edir. İranın, həmçinin, nüvə proqramını tərk etməsi bir daha göstərir ki, rəsmi Tehran da bu istiqamətdə bəzi addımlar atmağa çalışır.

*”Ölkəmizin əlaqədar qurumları istənilən vətəndaşın təhlükəsizliyini təmin etmək istiqamətində öz işlərini müvafiq plana uyğun şəkildə həyata keçirirlər”*

Əsas məqam ondan ibarətdir ki, bütün bu hadisələr Azərbaycandan çox da uzaq olmayan ərazilərdə yaşanır. Ölkəmiz coğrafi mövqeyinə görə hadisələrin episentrinə yaxındır. Məhz buna görə də ABŞ Azərbaycanda da öz vətəndaşlarının təhlükəsizliyi üçün ehtiyat tədbirləri görür. Bir daha xatırladıram ki, burada Azərbaycanın stabilliyi və təhlükəsizliyi müzakirə mövzusu ola bilməz. Ölkəmizin əlaqədar qurumları istənilən vətəndaşın təhlükəsizliyini təmin etmək istiqamətində öz işlərini müvafiq plana uyğun şəkildə həyata keçirirlər. Hər bir dövlətin öz xarici siyasəti var. Dostluq siyasəti öz yerində, hər bir ölkə öz maraqlarını öndə tutur. Yalnız ABŞ deyil, istənilən vətəndaşla bağlı yarana biləcək problem bizim maraqlarımıza ziddir. Belə bir təlimat olmasaydı da, Azərbaycan öz daxilindəki təhlükəsizlik tədbirlərini yuxarı səviyyədə görəcəkdi".

***Məhəmmədəli QƏRİBLİ***

# ABŞ və İranın ilk savaş meydanının İraq olacağı proqnoz edilir...

**ABŞ və İran arasında hələ ki, qarşılıqlı şəkildə artan ittihamların real hərbi müstəviyə keçməsi indi beynəlxalq gündəmin bir nömrəli mövzusu olaraq qalmaqda davam edir.**

Əksər ekspertlər bu qənaətdədir ki, tərəflərdən hansısa birinin savaşa doğru kiçik bir addımı belə bölgədə genişmiqyaslı müharibəni tətikləyə bilər. İndilikdə verilən açıqlamalardan aydın olur ki, proseslər elə bu istiqamətdə də cərəyan edəcək. Ən azı o baxımdan ki, İran və ona bağlı qruplar ABŞ-a qarşı müəyyən addımlar atmaqda israrlıdır. Belə vəziyyətdə ABŞ cavab tədbirlərinin görülməsi üçün indi hərbi hazırlığa başlayıb.

Məhz belə bir vaxtda yayılan məlumata əsasən, ABŞ Hind okeanındakı Dieqo Qarsia adasına 6 ədəd B-52 nüvə bombardmançı təyyarəsi göndərmək niyyətindədir. Təyyarələrin adaya İranla yaranan gərginlik fonunda göndəriləcəyi vurğulanıb. Adaya yerləşdiriləcək təyyarələrin İrana müdaxilə etmək üçün hazır vəziyyətdə olacağı qeyd edilib. CNN televiziyası Dieqo Qarsia adasının İrana 4 min kilometr məsafədə yerləşdiyini bildirib. Bununla Vaşinqtonun öz təyyarələrini İranın "Şahab" və "Sumar" kimi raketlərindən qorumağa çalışdığı vurğulanıb. Bundan başqa, ABŞ Yaxın Şərqdə də hərbçilərinin sayını durmadan artırır. Məlumata görə, Pentaqon İranla münasibətlərin gərginləşdiyi vaxtda Yaxın Şərqə minlərlə əlavə hərbçi göndərməyi planlaşdırır. "The Wall Street Journal" qəzeti hərbi qurumun adı açıqlanmayan nümayəndələrinə istinadən bildirir ki, Pentaqon hazırda İtaliyanın Viçentsa şəhərində yerləşən 200 hərbi qulluqçunu bölgəyə göndərməyi düşünür. Onlardan bəziləri ABŞ-ın Beyrutdakı səfirliyinin təhlükəsizliyini təmin edəcək. Onların ardınca daha 3500 hərbçi də bölgəyə gətiriləcək. Nəşr yazır ki, İran ABŞ-a hansısa hərbi cavab verməkdə israrlıdır. Bunu İran rəsmiləri özləri də açıqlayıb. İranın müdafi? naziri general-mayor ?mir Hat?mi bildirib ki, general Süleymaninin q?tlin? İranın reaksiyası s?rt olacaq. Onun sözl?rin? gör?, general Süleymaninin qanı nahaq yer? axıdılıb v? cinay?ti tör?d?nl?ri ağır c?za gözl?yir. İranın M?sl?h?t Şurasının katibi general Möhsün Rzayi d? bildirib ki, İran ABŞ-dan s?rt intiqam alacaq.




Ekspertlər bildirir ki, bu vəziyyətdə ABŞ və İranın ilk mərhələdə daha çox İraqda üzüzə gəlmə ehtimalı olduqca böyükdür. Artıq bunun ilkin anonsları da verilir. Belə ki, İran və ona bağlı qruplar üçün indi asan hədəf məhz İraqdakı ABŞ ordusudur. İran Ali dini liderinin müşaviri Əli Əkbər Vilayəti də bu xüsusda bildirir ki, ABŞ ordusunu Yaxın Şərqdən çıxarmasa, çox peşman olacaq. İran nümayəndəsi Moskva və Pekinlə birgə hərbi təlimlərə də toxunaraq, bunun ABŞ-ın regionda fəaliyyətinə qarşı vacib reaksiya olduğunu qeyd edib: "Amerikalılar çox axmaq bir addım atdılar və indi "ikinci Vyetnamla" qarşılaşmaq istəmirlərsə, regionu dərhal tərk etməlidirlər". Vilayəti əlavə edib ki, ABŞ həmişə İran və onun müttəfiqləri qarşısında məğlub olub. Hazırda İran ona bağlı qüvvələr vasitəsilə İraqda mövqelərini gücləndirir. Bu fonda ABŞ prezidenti Donald Tramp İranın İraqdakı təsirinin güclənməsinin "yaxşı heç nə ilə bitməyəcəyini" bildirib: "Birləşmiş Ştatlar illər boyunca İraqa ildə milyardlarla dollar ödəyir. İraq xalqı istəmir ki, İran üstün olsun və ona nəzarət etsin, amma son nəticədə bu onun seçimidir. Son 15 ildə İran İraqa daha çox nəzarət edir və İraq xalqı bundan narazıdır. Bu, yaxşı heç nə ilə bitməyəcək. Bağdadda iranlı generalın öldürülməsindən sonra İraq parlamenti xarici qüvvələrin ölkədən çıxarılmasına qərar verib. Hesab olunur ki, ABŞ bu addıma getsə, Yaxın Şərqdə mövqeləri xeyli zəifləyəcək. ABŞ-ın müdafiə naziri Mark Esper bu durumda İraqı tərk etməyəcəklərini bildirib: "ABŞ ordusunun İraqdan çəkiləcəyi barədə yayılan xəbərlər əsassızdır".

O qeyd edib ki, Vaşinqtonun İraqdan çəkilmək barədə planı yoxdur. Nazir İrana qarşı sərt hərbi zərbələrə hazır olduqlarını da bildirib. İndi əsas gözləntilər bundan ibarətdir ki, İran ona bağlı qruplar vasitəsilə İraqdakı ABŞ qüvvələrinə zərbələr endirməyə çalışacaq. Buna isə ABŞ-ın sərt cavabının olacağı şübhəsiz sayılır. Qeyd edək ki, Donald Tramp artıq İranı 52 obyektinə zərbə endiriləcəyi ilə hədələyib. İran Silahlı Qüvvələrinin komandanı Əbdülrəhim Musəvi isə Donald Trampın Tehranı hədələməsinə cavab verib. Musəvi ABŞ-ın İranda 52 obyektə zərbə endirməyə cəsarət etməyəcəyini vurğulayıb. O bildirib ki, gələcəkdə mümkün münaqişənin gedişində ABŞ-ın belə bir addım atmağa cəsarət edəcəyinə şübhə ilə yanaşır. İran prezidenti Həsən Ruhani də amerikalı həmkarının təhdidlərinə cavab verib: "İran millətini əsla təhdid etməyin. 52 rəqəminə işarə edənlərin 290 sayını düşünməsi daha yaxşı olar". Bir daha qeyd edək ki, Tramp, Tehran hücum edəcəyi təqdirdə, İrana məxsus 52 hədəfin vurulacağını bildirmişdi. 52 rəqəmi 1979-cu ildə ABŞ-ın Tehran səfirliyindəki 52 əməkdaşının girov götürülməsinə, 290 rəqəmi isə amerikalı hərbçilər tərəfindən 1988-ci ildə vurulan İran təyyarəsindəki sərnişinlərin sayına işarədir.

**Bundan başqa, savaş qızışacağı təqdirdə İranın İsraili də hədəfə alması əsas gözləntilər sırasındadır. İsrailin baş naziri Benyamin Netanyahu da bunu istisna etmir və Tehranı proseslərə diqqətlə yanaşmağa çağırır: "İranlı generalın öldürülməsində İsrailin əli yoxdur. Buna görə də İsrail ABŞ-la İran arasındakı gərginliyə daxil edilməməlidir". O bildirib ki, son hadisələrin Təl-Əvivlə əlaqəsi yoxdur.**

***Tahir TAĞIYEV***

# Azərbaycanın qızıl strategiyasının özü "qızıla çevrilir"...

**Cari il ərzində dünya maliyyə bazarlarında baş verməsi proqnozlaşdırılan proseslər xüsusi diqqətlə izlənməkdədir. Belə görünür ki, yaşanan olaylar fonunda qızılın qiyməti əhəmiyyətli dərəcədə yüksələcək, əsas yığım valyutalarından olan dollar xeyli dərəcədə ucuzlaşacaq.**

Yaranmış durumda milli valyutaların, eləcə də manatın bahalaşması proqnozlaşdırılır.

Məsələ burasındadır ki, ABŞ bu il ərzində ixrac potensialını qorumaq üçün dolları ucuzlaşdırmağı düşünür. Belə vəziyyət hazırda bahalaşmaqda olan neft qiymətinə təsir göstərən başlıca faktorlardan biridir. Amma məsələnin indiki mahiyyəti təkcə bununla bitmir. Ekspertlər hesab edir ki, ABŞ və İran arasındakı gərginliyin davam etməsi böyük iqtisadi və maliyyə şoklarına səbəb ola bilər. "Moody's" beynəlxalq reytinq agentliyinin analitiki Aleksandr Perjessi bu iqtisadi şokların ciddi təsirlərinin ola biləcəyini qeyd edib: "Uzunmüddətli gərginliyin dünya iqtisadiyyatına potensial təsirləri olacaq, gərginlik, xüsusən neft qiymətlərinə güclü təsir edəcək". Məlumata görə, iki ölkə arasındakı gərginlik Yaxın Şərqdə sadəcə neft qiymətlərinə deyil, bank, turizm kimi qeyri-neft sektorlarına da ciddi təhlükə yaradır. Belə vəziyyətdə investorların dollar ehtiyatından qurtulmaq üçün ABŞ valyutasını kütləvi şəkildə sata biləcəkləri də əsas proqnozlardan sayılır.

\Məhz bu vəziyyət dolların sürətlə ucuzlaşmasına təsir göstərəcək daha bir faktor sayılır. Belə bir vaxtda Fransanın "BNP Paribas" investisiya bankı Yaxın Şərqdə artan risqlərdən qorunmaq üçün investorlara "təhlükəsiz liman" kimi qızıla yönəlməyi və neft idxal edən ölkələrin valyutalarını satışını tövsiyə edib. Bankın məlumatına görə, ABŞla İran arasında gərginliyin daha da artması qızılın 1 unsiyasını 1650 dollara qaldıracaq, bununla da qiymətli metalın dəyəri 7 illik maksimumu yeniləyəcək. Bundan başqa Çin yuanı və İsveçrə frankı kimi digər aktivlər də yüksələcək. Bankın valyuta bölməsinin rəhbəri Şafali Saçdev bildirib: "Hazırkı vəziyyətdə investorlar üçün qızıl neftdən daha yaxşı investisiya vasitəsinə çevrilib".

Xatırladaq ki, ABŞ-ın hava hücumu ilə iranlı generalı öldürməsindən sonra beynəlxalq birjalarda qızılın qiyməti keçən həftə 3% artaraq 1 562 dollara yüksəlmişdi. Çin yuanı isə bu həftə son 3 ayın maksimumunu yeniləyib. Hazırda beynəlxalq bazarlarda qızılın qiyməti artmaqda davam edir. Məlumata görə, digər qiymətli metallardan platinin, gümüşün, palladiumun da qiymətində artım davam edir. Amma ən sürətlə bahalaşan qızıldır. Qeyd edək ki, qızılın qiyməti 2019-cu ildə 18% artıb. Bu il də qızılın qiymətinin artmasını proqnozlaşdıran "Goldman Sachs Group Inc", "Citigroup Inc." və "UBS Group AG" kimi investisiya bankları bu metalın qiymətini 1 unsiya üçün 1 700 dollar səviyyəsində proqnozlaşdırır. Belə vəziyyətdə qızıl ehtiyatına malik olan ölkə kimi Azərbaycanda bu məhsulun valyuta dəyəri artır.

Xatırladaq ki, Azərbaycanın Dövlət Neft Fondu (ARDNF) əsas maliyyə xəzinəsi üçün "sarı metal"ın alışına 1 fevral 2012-ci ildən başlayıb. İki il ərzində 30,18 ton qızıl alınıb. Neft Fondu 2014-2017-ci illərdə qızılın alınmadığını bəyan edib. Azərbaycan hökuməti tərəfindən qızılın alışının ikinci mərhələsi 2018-ci ilin ikinci yarımilində bərpa edilib və ilin sonunadək 21 tona yaxın qızıl alınıb. ARDNF, artıq planlaşdırıldığı kimi, 100 tona yaxın fiziki qızıl əldə edib. Eyni zamanda, dünya bazarında qızılın qiyməti ölkədə "sarı metal" istehsalının rentabelliyinin artırılmasına və Dövlət Neft Fondunun aktivlərinin dəyərinin artmasına kömək edir. Ölkədə hasil edilən qızılın da əsas alıcığı ARDNF və Mərkəzi Bankdır. Bu da o deməkdir ki, Azərbaycanın valyuta ehtiyatlarında qızılın payı daha da artacaq. Ölkəmizin sahib olduğu ABŞ istiqrazlarının satışı fonunda əldə edildən gəlirə də qızıl alınması proqnozlaşdırılır. Hazırda qeyri-müəyyən geosiyasi vəziyyət, qızılın digər aktiv növlərinə, o cümlədən daşınmaz əmlaka və qiymətli kağızlara nəzərən ucuz olması və qızıl hasilatının son illər nisbətən azalması onun qiymətinin artacağını proqnozlaşdırmağa əsas verir. Bu vəziyyətdə Azərbaycanın da valyuta ehtiyatlarının tərkibində qızılı




artırması məqbul hal sayılır. Bunu digər ölkələr də edir. Rəsmi statistikaya əsasən, Çin və Rusiya ən çox qızıl alan ölkələr siyahısındadır.

Bu da təsadüfi deyil. Çünki onların iqtisadiyyatının həcmi ilə qızıl ehtiyatları arasında ciddi disbalans mövcuddur. Belə ki, dünyanın ikinci iqtisadiyyatı olmasına baxmayaraq, Çinin rəsmi qızıl ehtiyatları olduqca azdır. Rusiya isə rəqiblərindən geri qalmaq istəmir. Eyni zamanda, ticarət müharibəsinin qızışması fonunda da qızıl ən etibarlı valyuta sayılır.

**Bundan əlavə, geosiyasi və geoiqtisadi vəziyyətin getdikcə pisləşməsi, gələcək perspektivlərin qeyri-müəyyənliyi fərdi və institusional investorları da qızıla yönəldir. Qızılın qiymətinin artmasının digər səbəbi isə, yuxarıda qeyd olunduğu kimi, neft və valyuta bazarında müşahidə edilən çalxalanmalar fonunda investorların öz pullarını daha az risqli istiqamətə yönəltməsi ilə bağlıdır. Bunlar qarşıdakı dövrdə də qızılın bahalaşmaqda davam edəcəyini göstərir.**

***Tahir TAĞIYEV***

# Banklar real sektoru istehlak kreditlərinə qurban verməkdə davam edir...

**Ölkənin maliyyə sektorunda hökumət tərəfindən atılmış addımlar nəticəsində nəzərəçarpacaq bir canlanmanın olması heç kimə sirr deyil. Xüsusən də ötən il atılan addımlar maliyyə sahəsində aktivliyin cari il ərzində də kifayət qədər yüksək olacağını deməyə əsas verir.**

Xatırladaq ki, Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən, məhz ötən ildə maaşların aşağı həddi iki mərhələdə artırılaraq 130 manatdan 250 manata, pensiyaların aşağı həddi isə yenə də iki mərhələdə artırılaraq 116 manatdan 200 manata çatdırıldı. Əmək haqqı artımları dövlət sektorunda 1 milyon nəfəri, özəl sektorda isə 350 min nəfəri əhatə etdi və dövlətin illik xərclərini təxminən 2 milyard manat artırdı. Pensiya artımları isə 750 min nəfərə şamil edildi və dövlət büdcəsindən bu məqsədlə 450 milyon manat əlavə vəsait ayrıldı. Təqaüd və müavinətlərdə də artımlar oldu və ümumilikdə bu sosial paketlər 4,2 milyon insana aid edilərək 3,9 milyard manatlıq əlavə illik maliyyə vəsaitinin ayrılması ilə müşayiət olundu.

Təbii ki, bütün bu qeyd edilənlər dövriyyəyə daxil olan vəsaitin artmasına, bu da öz növbəsində maliyyə aktivliyinin yüksəlməsinə rəvac verir. Ölkədə əhali tərəfindən xərclənən vəsait həcminin və istehlak miqdarının artması da qeyd olunanların real təsdiqidir. Digər tərəfdən o da mühüm faktordur ki, məhz ötən il hökumətin yardımı ilə probemli kreditlərin miqdarının çözülməsi də maliyyə aktivliyinə, bankların fəaliyyətinin genişlənməsinə birbaşa təsir edir.

Xatırladaq ki, dövlət başçısının imzaladığı "Fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmana əsasən, xarici valyutada əsas məbləği 10 000 dollara qədər olan əsas kredit borclarının devalvasiya hesabına artmış hissəsi dövlət büdcəsinin vəsaiti hesabına ödənilib. Bu proses təxminən 900 min insanı əhatə edib. Onlardan 600 mininə kompensasiya verilib, 300 mininə isə illik cəmi 1%-lə 5 il müddətinə milli valyutada yeni kredit müqaviləsi bağlamaq təklif olunub. İl ərzində vətəndaşlara 645 milyon manat kompensasiya ödənilib, 123 min borcalanın 242 milyon manat məbləğində kreditləri güzəştli şərtlərlə restrukturizasiya edilib, 205 milyon manat faiz və dəbbə pulu silinib, 42 min borcalanın kreditləri tam bağlanıb. Məhz bütün bunlar banklara maliyyə sektorunda daha geniş fəaliyyət göstərmək imkanı qazandırıb. Lakin burada yenə problem yaranmış durumdan istifadə edən bankların istehlak kreditinə daha çox üstünlük verməsidir. Bankların fəaliyyəti ilə istehlak kreditlərinin miqdarı yenidən sürətlə artır. Son bir il ərzində ölkədə kredit qoyuluşları 16.1% artıb ki, bu da əsasən ev təsərrüfatlarına kreditlərin 21% artmasından irəli gəlib. Kredit portfelində ev təsərrüfatlarına kreditlərin payı artıq 50.4%-ə çatıb. Ekspertlər istehlak kreditlərində bu artımı təhlükəli hal sayır.

Belə vəziyyət həm bankların özləri, həm də iqtisadiyyat üçün ciddi təhdidlər yaradır. Halbuki, dövlət tərəfindən həyata keçirilən tədbirlərin əsas hissəsi ona yönəlib ki, banklar daha çox real sektorla işləsinlər. Yəni banklar sahibkarlara vəsait versinlər, daha çox qeyri-neft sektoruna investisiya yatırsınlar.

Amma reallıq budur ki, banklar sahibkarlıq subyektlərinə müəyyən qədər vəsait versələr də, daha çox yüksək faizlə kredit verməkdə maraqlıdırlar. Bunun üçün ən yaxşı bazar sırf istehlak kreditləridir. Elə bundan irəli gəlir ki, son dövrlər istehlak kreditlərinin həcmi ümumi iqtisadiyyata qoyulan kreditlərin həcmi içərisində 50 faizi ötüb. Yəni banklar daha çox vəsait əldə etmək üçün istehlak kreditləşməsinə yönəlirlər. Ekspertlər bildirir ki, bankların yenidən istehlak kreditlərinə maraq göstərməsi ciddi təhdidlər yaradır. İlk növbədə ona görə ki, bu, real sektorun kreditlərə olan tələbinin ödənilməsinə imkan vermir. Digər tərəfdən, istehlak kreditləri problemli kreditlərin artımının əsas mənbəyi sayılır. Ona görə də istehlak kreditlərinin həcminin artması risqlidir. Bu zaman banklar həm də xarici şoklara reaksiya verə bilmir, əhalinin gəlirlərinin strukturunda dəyişiklik baş verdiyi halda problemli kreditlərin həcminin artması müşahidə olunur.




Hesab olunur ki, müvafiq qanunvericilik olmadan banklar istahlak kreditlərinin verilişini davam etdirəcək.

Söhbət "İstehlak kreditləri haqqında" qanundan gedir. Ekspertlərə görə, "İstehlak kreditləri haqqında" qanunun hazırlanması tamam başqa vəziyyət yarada bilər. Burada da elə qaydalar olmalıdır ki, verilən kreditlər istehlaka deyil, daha çox istehsala yönəldilsin.

**Digər tərəfdən real vəziyyət həm də onu göstərir ki, bu gün ölkədə maliyyə müştərisi və ya maliyyə xidmətlərinin istehlakçısının hüquqları tam qorunmur. Mövcud qanunlar daha çox bank və kredit təşkilatlarının mənafeyini müdafiə edir. Belə ki, Azərbaycanda istehlakçı hüquqlarını qoruyan qanun, eləcə də Mülki Məcəllə var, amma onlar daha çox ümumidir. Ekspertlər hesab edir ki, sırf ixtisaslaşmış istehlak kreditləri haqqında qanun olmalıdır ki, bankların öhdəlikləri, vətəndaşların hüquqları burada çox açıq şəkildə göstərilsin. Belə vəziyyət bank sektorunun özünü də təhlükəli durumdan xilas edə bilər.**

*Ramil QULİYEV*

# "Unibank" müştərilərinin kartından pul oğurlanır - bankın etibarı yeni təhlükədə...

**Yanvarın 6-sı axşam saatlarından etibarən "Unibank" ASC-nin debet kartlarından vəsaitlərin silinməsinə başlanıb. Müştərilər kütləvi şəkildə bankın sosial şəbəkələrdə olan hesablarında banka məxsus kartlarından müxtəlif məbləğlərin silindiyini yazıblar.**




## *Günel Fərhadqızı: "Adətən belə hallarda cinayət tərkibli əməllərin olması da ciddi nəzərdən keçirilir"*

Müşahidələrimiz göstərir ki, bankın plastik kart istifadəçilərinin hesabından silinən vəsaitlərin məbləği müştəridən asılı olaraq dəyişir. Bu səbəbdən də yanvarın 6-sı gün ərzində bankın müştəriləri arasında əsl ajiotaj yaşanıb.

Bankın dərhal yaydığı qısa açıqlamada yaranan problemin texniki yenilənmə ilə bağlı olduğu bildirilib: "Bayram günlərində aparılan profilaktik işlərlə bağlı bəzi kartların balansında dəyişikliklər olub. Hazırda sistemdə texniki yenilənmələr gedir. Bank əməkdaşları məsələnin həlli ilə məşğuldurlar. Narahatlığa heç bir əsas yoxdur. Ən qısa müddət ərzində kartların balansı bərpa ediləcək. Xahiş edirik narahat olmayasınız".

Bu qısa açıqlama bank müştərilərini tam qane etmədiyi üçün, sosial şəbəkələrdə bankın ünvanına müxtəlif ittihamlar səslənib. Həmin ittihamlar sırasında: bankın təhlükəsizliyinin tam etibardan düşməsi, bu halın texniki deyil, insan faktoru ilə bağlı olması kimi fikirlər yer alıb. Qeyd edək ki, sözügedən bankın adı daha çox qalmaqallarda hallanır. Xüsusilə də əhaliyə dollar kreditləri ilə bağlı müəyyən edilən kompensasiyaların ödənilməsində bankdan çoxlu sayda şikayət edilib. Belə halın digər banklarla bağlı yox, məhz "Unibank"la bağlı yaşanması da şübhələri bir qədər artırır. Baş vermiş hadisə ilə bağlı bank hansı öhdəlikləri daşıyır, müştərilər bununla bağlı nə edə bilərlər və onların hansı hüquqları tanınmalıdır?

Yaranmış vəziyyətə bağlı "Unibank"ın mətbuat xidmətilə əlaqə saxladıq. Oradan bizə dedilər ki, kartların balansında yaranan dəyişikliklər artıq həllini tapıb. Ətraflı açıqlama ilə bankın "Facebook" səhifəsindən tanış ola bilərik. Bankın yaydığı məlum açıqlamada deyilir: "Bir qədər əvvəl bəzi "Unibank" kartlarının balansında yaranan dəyişikliklər artıq həllini tapıb. Kartların balansı bərpa olunub. Məsələyə operativ münasibət bildirən bütün müştərilərimizə təşəkkür edirik! Belə həssas məqamda məsələyə daha soyuqqanlı yanaşan və son anadək hər kəsin bankına güvənən, etibar edən və sosial şəbəkələrdə ədalətli mövqe nümayiş etdirən müştərilərimizə isə xüsusi minnətdarlıq bildiririk!"

Bank məsələləri üzrə ekspert Günel Fərhadqızı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bank bu halda müştərilər qarşısında məsuliyyət daşıyır: "İstər kredit, istər cari hesabdan vəsaitin silinməsinə görə bank ciddi məsuliyyət daşıyır və buna görə müştərilərə kompensasiya ödəməlidir. Yaranmış vəziyyətlə bağlı müştərilər ilkin olaraq bankın özünə yaxınlaşmalıdırlar. Ora yazılı şəkildə müraciət etməlidirlər. Həmin müraciətin bir nüsxəsini özlərində saxlamalıdırlar. İstehlakçıların şikayətinə qaneedici cavab verilməsə, paralel olaraq, Mərkəzi Bankın nəzdində fəaliyyət göstərən İstehlakçıların hüquqlarının qorunması şöbəsinə müraciət etməlidirlər. Onların şikayətinə "İstehlakçıların hüquqlarının qorunması haqqında" Qanunun tələblərinə uyğun şəkildə baxmalıdırlar. Bu qanunun tələblərinə görə, istehlakçılar bankdan təzminat da tələb edə bilərlər. Çünki onların xəbəri olmadan hesablarında maliyyə əməliyyatları aparılıb və bunun da müqabilində müştərilərə maddi, psixoloji ziyan dəyib. Əllərində olan müqavilənin şərtlərinin bank tərəfindən birtərəfli pozulduğuna görə müştərilər "Unibank" qarşısında tam əsaslandırılmış iddia qaldıra bilərlər. Bunun da nəticəsində həm silinmiş pulların geri qaytarılmasını, həm də dəymiş mənəvi zərərə görə təzminat tələb edə bilərlər. Baş vermiş hadisə bir neçə səbəblə izah oluna bilər. Texniki səbəb varsa, maksimum 5 iş günü ərzində problem aradan qaldırılmalıdır. Bu olmursa, artıq problemin səbəbi insan faktoru ilə izah oluna bilər. Bu da bankın təhlükəsizliyi və onun müştəriləri üçün ciddi risq anlamına gəlir. Burada bankın öz işçilərinin və ya kənardan müdaxilələrin olduğu güman oluna bilər. Kibercinayətkarlıq faktoru da nəzərdən keçirilməlidir. Adətən belə hallarda cinayət tərkibli əməllərin olması da ciddi nəzərdən keçirilir. Bütün hallarda, bank müştərilərə dolğun informasiya verməlidir".

*Məhəmmədəli QƏRİBLİ*

# Yeni il Azərbaycanda qızılın qiymətinə düşmədi - artım nə ilə bağlıdır...

**Azərbaycanda qızıl və gümüş bahalaşıb. Yanvarın 7-də qızılın qiyməti dekabrın 30-u ilə müqayisədə 75,956 manat artaraq 1 unsiya üçün 2650,7675 manat təşkil edib.**



## *Fuad İbrahimli: "Qızılın qiyməti daha çox dünya bazarındakı qiymətə uyğun olaraq müəyyənləşir"*

Qeyd edək ki, qlobal bazarda qızılın 1 unsiyasının qiyməti 2,3% artaraq 1 588,1 ABŞ dolları təşkil edib ki, bu da 2013-cü ilin aprelin ayından bəri rekord göstərici sayılır. Qiymət artımının səbəbi kimi Yaxın Şərqdə yaşanan gərginliyin artması göstərilir.

Qeyd edək ki, gümüşün də 1 unsiyasının qiyməti ötən ilin sentyabrından öz maksimal qiymət səviyyəsini yeniləyərək 18,5 dollara çatıb.

Yeni il ərəfəsində də, bayramdan sonra da Azərbaycanda qızılın satış qiyməti düşmədi, əksinə, yüksəldi. Bunun səbəbinin nə ilə bağlı olduğunu öyrənmək məqsədilə iqtisadçılara müraciət etdik.

İqtisadçı-ekspert Fuad İbrahimli qeyd etdi ki, qızılın qiyməti daha çox dünya bazarındakı qiymətə uyğun olaraq müəyyənləşir: "Ölkəmiz əsasən dörd ölkədən - Türkiyə, İtaliya, Birləşmiş Ərəb Əmirlikləri və Rusiyadan qızıl idxal edir. Həmin ölkələrdə də qiymət dünya bazarındakı qızılın qiymətinə uyğun olaraq müəyyənləşir. Son bir ildə dünya bazarında qızılın qiymətində 22 faiz artım olub. Bu, son illərin rekord göstəricisidir. Artım qlobal ticarət savaşı ilə bağlıdır. Son altı ayda qızılın qiymətində 17 faiz artım müşahidə olunub. Bu da birbaşa həm qızılın qiymətində əvvəlki dövrlərdəki kəskin artım və

## *"Bayramöncəsi sahibkarlar bilərəkdən qızılın satış qiymətini qaldırırlar"*

bundan ehtiyatlanan investorların bir qisminin qızıl bazarındakı sərmayəsini geri çəkməsi, həm ABŞ-la Çin arasındakı münasibətlərin müəyyən qədər normallaşması, həm də ABŞ-ın Avropa Birliyinə tətbiq edəcəyi yüksək tariflərin yubanması ilə bağlıdır. Bütün baş verənlər birbaşa qızıl bazarına təsir edir".

Həmsöhbətimiz onu da əlavə etdi ki, bayramqabağı qiymətlərdə artımlar təkcə Azərbaycanda baş vermir: "Dünyanın bir çox ölkəsində sahibkarlar tərəfindən bayramöncəsi belə addımlar atılır. Bu, bazar münasibətlərində normal haldır. Ancaq bununla yanaşı, makroiqtisadi sabitliyin pozulduğu yerlərdə bəzi monopolist qüvvələr vəziyyətdən istifadə edərək qiymətləri qaldırırlar. Hazırkı vəziyyətdə Azərbaycanda dünyada gedən proseslərdən istifadə olunur.

**Yeni bazar münasibətlərinə uyğun olaraq sahibkarlar qiymətlərdə müəyyən dəyişikliklər edirlər. Amma bu, iqtisadiyyatı iflicetmə səviyyəsində deyil. Hazırda ölkəmizdə müşahidə olunan makroiqtisadi sabitlik fonunda hər hansı kəskin qiymət artımı proqnozlaşdırılmır".**

*Günel CƏLİLOVA*

# Evlərin sığorta məsələsini ajiotaja çevirib pul qazanmaq istəyən dəllallar peyda olub...

**Məlum olduğu kimi, cari ildən etibarən evlərin məcburi sığortalanması ciddi nəzarətə götürüləcək. "İcbari sığortalar haqqında" Qanuna görə, daşınmaz əmlakın sığortalanması məcburidir və bura obyektlər, inzibati binalar, yaşayış sahələri aiddir.**



## *Natiq Cəfərli: "Sığorta şirkətlərinə cərimə tətbiq etmək səlahiyyəti verilməyib"*

Bu məsələ "İcbari sığortalar haqqında" Qanunda çoxdan nəzərdə tutulsa da, indiyədək bunun üzərinə o qədər də ciddi gedilmirdi. Çünki nəzarət mexanizmi tam formalaşmamışdı və bu mümkün deyildi. Yalnız bir halda - notariusdan keçəndə evləri sığortalamağa məcbur edirdilər. Notarius vasitəsilə evlər alınıb-satılanda, girov qoyulanda və yaxud digər formada əməliyyat aparılanda evlərin məcburi şəkildə sığortalanması tələb edilir və onda evlər sığortalanırdı.

Sığortanın qiymətlərinə gəlincə, Bakıda mənzilin birinin sığortalanması illik 50 manat, böyük şəhərlərdə illik 40 manat, rayonlarda isə illik 30 manatdır. Bakıda 50 manatın müqabilində maksimum 25 min manatlıq sığorta ödənişi ola bilər. Böyük şəhərlərdə 40 manatın müqabilində maksimum 20 min manat, rayonlarda isə 30 manatın müqabilində maksimum 15 min manat sığorta ödənişi ola bilər. Məsələn, Bakıda ev 50 manata 1 il müddətində sığortalanıbsa, hadisə baş versə, evin sahibinə maksimum 25 min manatadək ödəniş ola bilər.

Qeyd edək ki, "İcbari sığortalar haqqında" 2011-ci il 24 iyun tarixli, 165-IVQ nömrəli Qanunun 35.2. maddəsinə əsasən, hüquqi və fiziki şəxslərə məxsus tikililərin, yaşayış və qeyri-yaşayış sahələrinin, yaşayış evləri və binalarının, mənzillərin, habelə dövlət əmlakının sığortası icbaridir. Dövlət qeydiyyatına alınmış daşınmaz əmlak dedikdə, qarajlar, mağazalar, evlər, mənzillər və sair dövlət qeyd?yyatına alınmış ("kupça"sı olan) obyektlər nəzərdə tutulur. "Kupça"sı olmayanlara sığorta məcburi deyil.

Maraqlıdır, 2011-ci ildə qüvvəyə minən və indiyədək heç bir nəzarət, cərimə mexanizmi tətbiq edilməyən icbari sığorta, qanuna heç bir dəyişiklik edilmədiyi halda, niyə 2020-ci ildən məcburi hal alır?

Ekspertlərin fikrincə, bu hal daha çox sığorta şirkətlərinə sərf edir. Sığorta şirkətləri bilərəkdən ajiotaj yaradırlar.

İqtisadçı-ekspert Natiq Cəfərli qeyd etdi ki, sığorta şirkətləri bilərəkdən əhalini təşvişə salırlar: "Sığorta şirkətləri bilərəkdən ajiotaj yaradaraq, əhalinin daşınmaz əmlakını sığortaya cəlb etmək niyyəti güdür, əlavə gəlir mənbəyi əldə etməyə çalışırlar. Bu qanun çoxdan qəbul olunub, amma tətbiqilə bağlı ciddi problemlər var. Çünki ölkədə 650-700 min daşınmaz əmlakın sənədi yoxdur. İllərdir "sənədsiz evlər" məsələsi həll olunmur. Sənədi olmayan daşınmaz əmlakın sığortalanması mümkün deyil. Ölkədə təqribən milyon yarıma yaxın daşınmaz əmlak var. Bunların sığortasını 50 manatdan hesablasaq, 75 milyon manat əlavə gəlir deməkdir. Belə baxanda sığorta şirkətlərinin iştahası pis deyil, obrazlı desək, piroqdan pay götürmək istəyirlər. Əgər ölkə ərazisində qanun hamıya bərabər şəkildə tətbiq olunmursa, onun işləməsi mümkün deyil. Ona görə də əhalinin təşvişinə, narahatlığına əsas yoxdur. Yalnız insanlar öz daşınmaz əmlakı ilə bağlı hüquqi əməliyyat həyata keçirərkən, satarkən, yaxud kiminsə adına keçirərkən, həmin sənədi tələb edə bilərlər. Yalnız o zaman vətəndaş məcburiyyətdən həmin sənədlə bağlı addım atar".

*"Sığorta şirkətləri bilərəkdən ajiotaj yaradaraq, əhalinin..."*

Həmsöhbətimiz onu da əlavə etdi ki, milyonlarla daşınmaz əmlakın mövcud olduğu ölkədə hamıya cərimə yazılması mümkün deyil: "Belə bir yanlış informasiya yayılıb ki, guya cərimə yazıldığı halda, onu ödəməyən vətəndaş hər 20 gündən bir cərimələnəcək. Bu, absurd bir şeydir, yenə də kimlərinsə maraqlarına xidmət edir. Hansısa qanun pozuntusuna görə cərimə il ərzində 1 dəfə yazıla bilər. Amma eyni əmələ görə hər 20 gündən bir cərimə yazılması mümkün deyil".

**N.Cəfərli qeyd etdi ki, o şəxsən öz daşınmaz əmlakını sığortalatdırmayıb: "Bunun üçün narahat deyiləm, vətəndaşları da rahat olmağa çağırıram. Cərimənin yazılması və yığılması ilə bağlı aidiyyəti və məsul orqan da yoxdur. Sığorta şirkətlərinə cərimə tətbiq etmək səlahiyyəti verilməyib".**

*Günel CƏLİLOVA*

# Yaşayış binalarına bitişik obyektlərin tikintisinin qarşısı hələ tam alınmayıb

**Paytaxtın ən gözəgəlimli, insanların gəliş-gedişinin gur olduğu ərazilərində, eləcə də ticarət üçün əlverişli olan yerlərdə müxtəlif obyektlərin tikilməsi artıq adətə çevrilib. Bu azmış kimi, yaşayış binalarına bitişik də müxtəlif ticarət obyektləri, restoran və dönərxanalar, alış-veriş mərkəzləri inşa olunur.**




## *İlqar Hüseynli: "Bu məsələdə məsuliyyəti ən çox yaşayış binalarına bitişik obyektlərin tikintisini sənədləşdirən, onun inşasına icazə verən məmurlar, dövlət orqanlarının əməkdaşları daşıyırlar"*

Ərazidə yaşayan sakinlərin ciddi narazılığına baxmayaraq, yenə sahibkarlar yaşayış binalarına bitişik obyektlər inşa etdirməkdə davam edirlər. Hətta sakinlər dəfələrlə bununla bağlı əlaqədar qurumlara da müraciət ediblər, lakin əksər halda tikintini dayandırmaq mümkün olmayıb. Yeri gəlmişkən, bu günlərdə analoji problemlə əlaqədar Yasamal rayonu ərazisində yerləşən binalardan birinin sakinləri əlaqədar qurumlara müraciət ediblər. Onlar yaşadıqları binaya bitişik obyektin insaşının dayandırılmasını tələb edirlər.

Son dövrlər yaşayış binalarında yanğın hadisələrinin artmasının, qaz sızmaları yaranmasının əsas səbəblərindən biri kimi həmin binalara bitişik obyektlərin olması göstərilir. Yəni bu obyektlərdə təhlükəsizlik tədbirləri lazımi səviyyədə həyata keçirilmədiyi üçün, orada baş verən yanğın, qaz sızması və digər hallar yaşayış binalarına da keçir.

Məlumdur ki, yerli qurumlar özləri də bir sıra hallarda problemin qarşısını almaq üçün çalışdıqlarını bəyan etsələr də, nəticədə yenə də obyektlər inşa olunur.

Yaşayış binalarına bitişik obyektlərin inşasının qarşısının tam olaraq alınmamasının səbəbi nə ilə bağlıdır?

Sosial-iqtisadi sahə üzrə tanınmış ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, bu problemin tam olaraq öz həllini tapa bilməməsinin əsas səbəbi həmin əraziləri sahibkarlara satan məmurlardır. O qeyd etdi ki, bəzi icra hakimiyyəti orqanlarının, eləcə də digər aidiyyəti qurumların məsul şəxsləri pul müqabilində yaşayış binalarının ətrafını sahibkarlara satır, sahibkarlar da binalara bitişik obyektlər tikib pul qazanırlar. "Bu olduqca ciddi və aktual bir problemdir. Bilirsiniz, hansısa yaşayış binalarının yanı, yaxınlığı boşdursa, mütləq ora hansısa bir sahibkar göz qoyur. Sahibkarın pul qazanmaq üçün bu əraziləri əldə etmək istəyi, orada obyekt inşa etmək arzusu təbiidir, amma gərək yerli qurumlar buna şərait yaratmasınlar. Sahibkarlar binalara bitişik obyektləri özbaşına, icazəsiz tikmirlər ki, onlara burada tikinti aparmaq üçün icazəni icra hakimiyyətləri, eləcə də şəhərsalma və arxitektura təşkilatı, həmçinin də bələdiyyələr və s. verirlər. Bəzi dövlət qurumları ərazinin obyekt tikintisi üçün yararlı olub-olmadığını araşdırmadan, yaxud yaşayış binalarına bitişik tikilərsə, onun yaradacağı fəsadları nəzərə almadan tikinti ilə bağlı sərəncam verirlər. Çox təəssüf ki, bəzi məmurlar, əlaqədar təşkilatların təmsilçiləri qohumluğu, korrupsiya və rüşvəti öz vəzifə borclarından üstün tuturlar. Əslində, bunun qarşısı çox ciddi cəhdlə alınmalıdır. Hesab edirəm ki, bu məsələdə məsuliyyəti ən çox yaşayış binalarına bitişik obyektlərin tikintisini sənədləşdirən, onun inşasına icazə verən məmurlar, dövlət orqanlarının əməkdaşları daşıyırlar. Sahibkar istəyir daha çox obyektə sahib olsun, daha çox ərazi əldə etsin. Bu da sözsüz ki, sakinlərin narahatlığına gətirib çıxarır. Vətəndaş görəndə ki, sahibkarın inşa etdirdiyi bina onun təhlükəsizliyini zərbə altında qoyur, sahibkara qarşı tələblər irəli sürür, amma nəticədə heç nəyə nail ola bilmir. Çünki sahibkar ona "daşdan keçən" sənəd təqdim edir".

*"Çox təəssüf ki, bəzi məmurlar, əlaqədar təşkilatların təmsilçiləri qohumluğu, korrupsiya və rüşvəti öz vəzifə borclarından üstün tuturlar"*

**İ.Hüseynli hesab edir ki, yaşayış binaları üçün böyük təhlükə yaradan obyektlərin inşasının qarşısının alınması üçün əlaqədar qurumların məsuliyyəti artırılmalıdır. Onun sözlərinə görə, dövlət qurumları kor-koranə şəkildə tikintilərə icazə verməməlidirlər. Yaşayış binalarına bitişik inşa edilən obyektlərin binalar üçün təhlükə mənbəyi olduğunu istisna etməyən İ.Hüseynlinin fikrincə, aidiyyəti qurumların məsul şəxsləri özləri bu cür tikililərin qarşısının alınması istiqamətində işlər görməlidirlər.**

*İradə SARIYEVA*

# Azərbaycana qida məhsulları idxalında artım davam edir - niyə...

**Son zamanlar respublikaya ərzaq mallarının, kənd təsərrüfatı məhsullarının idxalında çox ciddi artım müşahidə olunur. Bunu müəyyən rəsmi statistik rəqəmlər də təsdiq edir. İlk baxışdan belə qənaət yaranır ki, Azərbaycanda əhalinin tələbatını ödəyəcək qədər mallar istehsal olunmur.**



## Nicat Nəsirli: "Yeyinti məhsullarının idxalını minimuma endirmək üçün sənayeləşmə genişlənməlidir"

Dövlət Gömrük Komitəsinin (DGK) məlumatına görə, 2019-cu ilin yanvar-noyabr aylarında yeyinti məhsullarının idxalı 1 milyard 486,6 milyon dollar təşkil edib. Bu, kifayət qədər böyük rəqəmdir. İndiyə qədər ölkəyə bu qədər yeyinti məhsulları idxal edilməyib. Müqayisə üçün qeyd edək ki, 2019-cu ilin 11 ayı ərzində yeyinti məhsullarının idxalı 2018-ci ilin eyni dövrü ilə müqayisədə 21 faiz, 2015-ci illə müqayisədə isə 69,7 faiz artıb.

Belə görünür ki, yeyinti məhsullarının idxalı ilbəil artır. O da məlumdur ki, son illər ölkədə kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı bir sıra işlər görülür. Bu sahəyə subsidiyalar ayrılır, aqroparklar tikilir, kənd təsərrüfatı məhsullarının emalı ilə bağlı yeni müəssisələr yaradılır və s. Belə olan halda, yeyinti məhsullarının idxalında müşahidə edilən artım dinamikası nə ilə bağlıdır?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən kənd təsərrüfatı sahəsi üzrə ekspert Nicat Nəsirli bununla bağlı bir sıra məqamlara toxundu: "Qida məhsulları ilə bağlı kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq istiqamətində xammalı əsasən idxal edirik. Məsələn, əhalinin qidalanmasında əsas yer tutan quşçuluq məhsullarıdır. Biz bununla bağlı yem və yem komponentlərini, texnologiyaları idxal edirik. Dondurulmuş quş ətini konserv sənayesi üçün idxal edirik. Eyni zamanda, bitkiçilik sahəsində də oxşar vəziyyət hökm sürür. Təxminən 11 bitki üzrə biz idxaldan tam asılıyıq. Ən çox idxal etdiyimiz qida məhsulu qarabaşaq, soya və paxladır. Əsasən sözügedən məhsullar idxal edilir. Digər tərəfdən, xammal və qida əlavələri idxalda üstünlük təşkil edir. Düzdür, bizdə şəkər çuğunduru emalı zavodu var, amma qənnadı sənayesi üçün lazım olan müəyyən xammal xaricdən gəlir. Fruktoza, qlükoza tipli əlavələr xaricdən gəlir. Yəni qida məhsullarının idxalında biz əsasən xammaldan asılıyıq. Çünki bizdə qida sənayesi şaxələnməyib. Biz məhsulu daha çox xammal şəklində satırıq. Bir sıra kənd təsərrüfatı sahələrində vəziyyət belədir. Məsələn, biz istehsal olunan pambığın hardasa 70 faizini xammal şəklində satırıq. Ancaq pambıqla bağlı ilkin və dərin emal sənayesi qura bilsək, o zaman biz daha çox pul qazanacağıq. Bu zaman ümumi dövriyyədə əlavə dəyər yaranar. Eyni zamanda, qida sahəsində də bu belədir. Məsələn, Azərbaycanda qırmızı ət istehsalı hardasa 70-80 faiz olsa da, amma yem və yem əlavələri idxalı yüksəkdir. Bir sıra cins heyvanları idxal edirik. Bu da son nəticədə maya dəyərinə təsir edən faktora çevrilir".

*"Yalnız o zaman bizim idxaldan asılılığımız azalacaq"*

N. Nəsirlinin fikrincə, yeyinti məhsullarının idxalını minimuma endirmək üçün sənayeləşmə genişləndirilməlidir: "Yəni qida məhsulları ilə bağlı ilkin və son emal sənayesi yaranmalıdır. Yalnız o zaman bizim idxaldan asılılığımız azalacaq. Məsələn, Azərbaycanda şirniyyat sənayesinin inkişafı yaxşı səviyyədədir, amma lazım olan xammal kənardan gətirilir.

Ona görə də bütün bunlar həm maya dəyərinə təsir edir, həm də ölkədə sənayeləşmənin dərinləşməsinin qarşısını alır. Başqa bir tərəfdən, xammal ucuz və asan başa gəldiyi üçün, sahibkarlar buna maraq göstərirlər. Ancaq biz iqtisadiyyatımızın şaxələnməsini istəyiriksə, qida və kənd təsərrüfatı üzrə emal sənayeləri regionlar üzrə ixtisaslaşmalıdır. O zaman bunun bizim üçün çox ciddi iqtisadi nəticələri olacaq".

***Vidadi ORDAHALLI***

# Aran bölgə fermerlərimiz quraqlıqdan "yanır" - qar-yağış yox, kanallara da su vurulmur...

**Hazırda qışın oğlan çağı olsa da, Azərbaycanın bəzi ərazilərinə yağıntılar olduqca az düşür. Yağıntının normadan az olması aqrar sahəyə mənfi təsir edir, həm də quraqlığa səbəb olur. Quraqlığın yaranması isə zərərvericilərin artmasına zəmin yaradır.**



## Nicat Nəsirli: "Quraqlıq, ümumilikdə, çox qlobal problemdir"

Havanın quraqlıq keçməsi insanları, xüsusən aqrar sektorda çalışanları narahat edir. Çünki torpaqda yetərli rütubətin olmaması suvarma sistemi olmayan torpaqlarda əkinçiliyin taleyini sual altında qoyur. Bu hal daha çox Aran zonasında müşahidə olunur. Həmin bölgənin fermerləri quraqlığın olmasından ciddi narahatlıq hissi keçirirlər.

Kənd Təsərrüfatı Nazirliyinin eksperti Nicat Nəsirli məsələ ilə bağlı bildirdi ki, meteoroloji baxımdan hazırda Azərbaycanda keçənilki vəziyyət müşahidə edilir: "Qış mövsümü dekabrda qədəm qoysa da, bizim aktiv dövr yanvarın ikinci yarısında - "Kiçik çillə" deyilən vaxtdan başlayır və aprel ayınadək davam edir. Məlumdur ki, noyabr nisbətən yağıntılı olub. Dekabrın sonunda əkinçilik rayonlarında olarkən quraqlıqla bağlı çox həyəcanlı vəziyyətə şahidlik etdim. Təxminən 18 aran rayonunda əkinçilik formalaşıb. Kifayət qədər yağıntı düşmədiyinə görə taxıl sahələrində mövsümə uyğun çıxışın baş verməditi görünür.

Məntiqlə sentyabr-oktyabr aylarında əkilmiş taxıl artıq kollama fazasına qədəm qoymalı və yanvar ayında qışlama dövrü başlamlı idi. Qışlama dövründə bitkinin vegetativ inkişafı dayanır, amma güclü kök sistemi sayəsində qışlama uğurlu keçir. Aran rayonlarında quraqlıqla bağlı fermerlərimiz arasında ciddi narahatlıq var. Məlumat üçün bildirim ki, bu yaxınlarda Ekologiya və Təbii Sərvətlər Nazirliyi də rəsmi olaraq su resurslarının 15 faiz azalması ilə bağlı bəyanat verdi. Bu çox ciddi məsələdir. Hesab edirəm ki, bu il də ötənilki kimi möcüzə baş verməyəcək. Yəni bizim iqlim tipimiz budur. Müşahidələr deməyə əsas verir ki, su rezervlərində quraqlıq, suvarma kanallarında suyun səviyyəsinin azalması müşahidə olunur. Bu vəziyyətə müdaxilə etmək lazımdır. Müdaxilə isə aidiyyəti qurumlar tərəfindən sututarların yaradılması ilə ola bilər. Sututarlar axar və itkiyə gedən suların qarşısında bənd qurmaqla yaradılır. Biz həm də sudan səmərəli istifadəni təmin etməliyik. Suvarma kanallarının çoxu torpaq kanallardır, sağa-sola sızma verir. Həm torpaqları şoranlaşdırır, həm də itkiyə gedir. Fermerlərimizin bəziləri bilgisizlik ucbatından sellənmə-suvarma metodundan geniş istifadə edirlər ki, bu da itkinin səbəblərindən biridir. Mövsüm ərzində 1 hektarın suvarılması üçün 800 kub su tələb olunursa, bu, sudan düzgün istifadə edilməməsi deməkdir. Nə məhsuldarlığa xeyir verir, nə də torpağa".

*"Suvarma kanallarında suyun səviyyəsinin azalması müşahidə olunur, bu vəziyyətə müdaxilə etmək lazımdır"*

Həmsöhbətimiz onu da əlavə etdi ki, dekabr ayında aqronomiya baxımından dondurma suyundan istifadə edilir. Dondurma suyu zərərvericilərə qarşı çox effektiv mübarizə üsuludur, onların yuvaları dağılır, məhv olurlar. Yaz aylarında temperatur yüksəldikcə, torpağın üzərinə çıxıb bitkiyə zərər verməsinin qarşısının alınmasının ən yaxşı üsulu dondurma suyudur: "Hazırkı şəraitdə müşahidə edilən quraqlıq, birmənalı olaraq, yaz aylarında taxıl sahələrində siçanabənzər zərərvericilərin çoxalmasına səbəb olacaq. Onlarla mübarizə aparmaq əlavə resurs, vəsait və vaxt tələb edəcək".

N.Nəsirlinin sözlərinə görə, quraqlıq, ümumilikdə, çox qlobal problemdir: "Atmosfer çöküntüləri - qar, dolu düşməsi su mənbələridir. Biz isə qar görmürük. Qarın təsərrüfat üçün əhəmiyyəti böyükdür. Qar yağan zaman torpaq nəmlənir, bitkinin kollama fazası güclənir. Məhsuldarlığın 60 faizi məhz bu mərhələdə təmin olunur. Hazırda bir çox taxıl sahələrində çıxış yoxdur. Çıxışın olmaması suvarma suyunun yoxluğundan irəli gəlir. İndiyədək taxıl sahəsində çıxış yoxdursa, indidən belə oradan faydalı nəsə çıxmayacaq. Fermer məcbur olub yazda təkrar əkin aparacaq. Apreldə aparılan əkin isə yazlıq sayılır. Yəni çörəkbişirmə üçün yox, toyuq-cücəyə, heyvana yem çıxır. Ümumiyyətlə, bu çox ciddi məsələdir və qlobal problem olaraq həll edilmədən qalır".

***Günel CƏLİLOVA***

# Maddi-texniki bazası zəif olan özəl universitetlər birləşdiriləcək, ləğv olunacaq(?)

**Bütün dünyada dövlət ali məktəbləri ilə yanaşı, özəl ali məktəblər də fəaliyyət göstərirlər. Hətta bəzi ölkələrdə dövlətin ali təhsil sisteminin formalaşmasında, genişlənməsində özəl ali təhsil müəssisələri başlıca rol oynayırlar. Azərbaycanda isə özəl ali məktəblərin çoxu nəinki ali təhsilin inkişafına töhfə verə bilmir, heç düz-əməlli maddi-texniki bazaya, tələbə, müəllim-professor heyətinə malik deyillər.**

İki-üç özəl ali məktəbi çıxmaq şərtilə ölkəmizdəki özəl ali məktəblərin, demək olar ki, hamısının fəaliyyəti elə də ürəkaçan deyil.

Təhsil ictimaiyyətində dolaşan fikirlərə görə, maddi-texniki bazası zəif olan, yetərincə müəllim-tələbə kontingentinə malik olmayan özəl ali məktəblər ya birləşdiriləcək, ya da ləğv olunacaqlar.

Ekspertlər qeyd edirlər ki, özəl ali məktəblərin fəaliyyətinin gücləndirilməsi üçün bu sahədə islahatların, dəyişikliklərin həyata keçirilməsi vacibdir.

Tanınmış təhsil mütəxəssisi, professor Məhərrəm Zülfüqarlı hesab edir ki, Təhsil Nazirliyinin aidiyyəti şöbəsi özəl ali məktəblərin fəaliyyəti ilə bağlı ciddi araşdırmalar aparmalıdır.

M.Zülfüqarlının sözlərinə görə, özəl ali məktəblərin birləşdirilməsi vacib olsa da, buna bu müəssisələrə rəhbərlik edənlər razılıq verməzlər. Özəl ali məktəblərin bir çoxunda maddi-texniki baza və s. sahələrdə ciddi problem olduğunu deyən M.Zülfüqarlının bildirdiyinə görə, onların fəaliyyətindən ictimaiyyət də ciddi narazılıq edir. "Hesab edirəm ki, ictimaiyyəti ciddi narahat edən bu problemlərin həllinə nail olmaq lazımdır. Lazımi səviyyədə tədris həyata keçirə bilməyən, özünün professor-müəllim heyəti olmayan özəl ali məktəblərin ya ləğv edilməsi, ya da başqa bir özəl ali məktəbə birləşdirilməsi vacibdir.

Amma deyim ki, özəl ali məktəbləri bir-birilə birləşdirmək çox çətin olar, çünki o kiminsə təsis etdiyi bir müəssisədir. Özəl ali məktəblərin birləşdirilməsi çox müsbət nəticə verə bilər. Burada söhbət maddi-texniki bazanın möhkəmləndirilməsindən, eləcə də müəllim-professor kontingentinin formalaşdırılmasından gedir. Bu cür özəl ali məktəblərə elmi dərəcəsi olan alimlər, müəllimlər cəlb edilməlidir. Amma təəssüf ki, bəzən görürsən, heç bir elmi dərəcəsi olmayan adamlar özəl ali məktəblərdə rektor işləyirlər. Rektorun elmi dərəcəsi yoxdursa, o özəl ali məktəbdə hansı yüksək ali təhsildən danışmaq olar".



**Məhərrəm Zülfüqarlı:** *"Lazımi səviyyədə tədris həyata keçirə bilməyən, özünün professor-müəllim heyəti olmayan özəl ali məktəblərin ya ləğv edilməsi, ya da başqa bir özəl ali məktəbə birləşdirilməsi vacibdir"*

**İlqar Orucov:** *"...maddi-texniki bazası formalaşmayan özəl ali məktəblərin fəaliyyətinə xitam verilməlidir"*

M.Zülfüqarlı hesab edir ki, bu ali məktəblərə tövsiyələr verilməli, onlara dəstək göstərilməli, onların fəaliyyətində irəliləyiş olmadıqda isə lisenziyaları ləğv edilməlidir.

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucovun fikrincə də Azərbaycanda özəl ali məktəblərin birləşdirilməsi çox aktual və vacib bir məsələdir. "Təbii ki, Azərbaycanda özəl universitetlərin verdiyi təhsil çox təəssüf ki, ölkəmizin nə iqtisadi inkişafına uyğundur, nə də onların buraxdığı məzunlar əmək bazarının tələblərini ödəyə biləcək kadrlardır. Onlar əmək bazarının tələblərinə cavab vermirlər. Bütövlükdə, özəl ali məktəblərin təhsil mühiti, tədris, maddi-texniki bazası, eyni zamanda, onların tədqiqat imkanları nəinki dünyanın, eləcə də Azərbaycanın ümumi inkişafından geridə qalıb. Bu baxımdan da Azərbaycanda özəl ali məktəbləri, sadəcə, diplom vermək xatirinə saxlamaq doğru deyil. Özəl ali məktəblərin bir neçəsinin artıq birləşməsi vacibdir, bu qaçılmazdır. Bu gün Azərbaycanda 50-dən çox ali təhsil müəssisəsi var. Bunların çoxu dövlət universitetləri olsa da, onların arasında özəl ali məktəblər də var. Təəssüf edirəm ki, özəl ali məktəblər öz üzərilərində işləmək, maddi-texniki bazalarını möhkəmləndirmək əvəzinə, inkişafdan geri qalıblar, zamanın çağırışlarına cavab vermirlər. Əlbəttə, dövlət həm özəl, həm də dövlət ali təhsil müəssisələrinin inkişafında maraqlıdır. Çünki hər bir ali təhsil müəssisəsi Azərbaycan cəmiyyəti üçün kadrlar, mütəxəssis hazırlayır. Amma gəlin baxaq görək, bizim özəl ali məktəblər dövlətin tələb və çağırışlarına cavab verə bilirlərmi? Təəssüf ki, yox. Əvvəla özəl ali məktəblərin təhsil haqqı çox bahadır, onlar bu təhsil haqqı hesabına fəaliyyət göstərirlər. Ümumilikdə, bu müəssisələr təhsil haqqına ümid olaraq, tələbənin cibinə göz dikərək fəaliyyət göstərirlər. Hətta qeyd edim ki, bizim gənclərin, məzunların xaricə gedib orada ali təhsil və digər alternativ təhsil almaq imkanları olmasa, bizim özəl ali təhsil müəssisələri təhsil haqlarını fantastik həddə gətirib çıxara bilərlər. Çünki reallıq da bundan ibarətdir. Mən sizə bir nümunə çəkim. Belçikanın Leuven Katolik Universiteti var. Bu ali təhsil məktəbinin yaşı çox qədimdir, təxminən 250 min tələbə təhsil alır. Bu ali məktəb həm də distant təhsil verir. O, Avropanın top 50-də olan universitetdir. Orada təhsil haqqı xarici tələbələr üçün 1300 avrodur, yerli tələbələr üçün isə çox cüzidir. İndi görün Azərbaycanın özəl ali məktəblərində təhsil haqqı nə qədərdir? 1300 avroya təhsil verən özəl ali təhsil məktəbimiz varmı?"

İ.Orucov hesab edir ki, bəzi özəl ali məktəblərin məqsədi gənclərin təhsilli olması deyil, məqsədləri gənclərdən sui-istifadə edərək pul qazanmaqdır. Onun sözlərinə görə, özəl universitetləri ciddi təftiş etməyin vaxtı yetişib, özəl ali məktəblərin fəaliyyətini yüksək keyfiyyətə uyğun olaraq qurmaq lazımdır. "Bir çox özəl ali məktəbi nəinki birləşdirmək, hətta fəaliyyəti yarıtmaz olanların üzərinə gedib onların fəaliyyətini dayandırmasına nail olmaq lazımdır. İşləyə bilməyən, yüksək ali təhsil vermək gücündə olmayan, maddi-texniki bazası formalaşmayan özəl ali məktəblərin fəaliyyətinə xitam verilməlidir. Hesab edirəm ki, bu istiqamətdə Təhsil Nazirliyi, aidiyyəti dövlət qurumları müvafiq tədbirlər görməlidirlər. Azərbaycanın özəl ali təhsil müəssisələrindən tələb edilməlidir ki, siz pul qazanırsınız, bunun müqabilində dövlətə yüksək səviyyəli kadrlar verin. Təhsili biznesə çevirmək düzgün deyil, xüsusən də Azərbaycan reallığı üçün. Təhsilə ticarət gözü ilə baxmaq yaxşı nəticə vermir. Dövlət özəl ali məktəbə nəzarəti gücləndirməlidir. Özəl ali məktəblərdə xeyli sayda yerində olmayan rektor var. Özəl universitetlərdə 20 il rektorluq edən insan var ki, onun rəhbərlik etdiyi ali məktəbdə imtahana nəzarət edəcək 5 nəfər müəllim yoxdur, kadr yetişdirməyib. Onlar dövlətin, camaatın hesabına milyonlar qazanıblar, amma dövlət üçün bir kadr yetişdirməyiblər. Bu baxımdan, hesab edirəm ki, özəl ali məktəblər haqqında düşünmək və onlar barədə ciddi qərarlar qəbul etmək lazımdır" - deyə İ.Orucov bildirdi.

***İradə SARIYEVA***

№ 1 (4132) ■ Qiymәti: **40 qәpik**

# BAKI XӘBӘR

www.baki-xeber.com

8 YANVAR 2020-ci il



# NASA-nın qadın astronavtı rekord vurdu

**Amerikalı astronavt Kristina Kox tәnha uçuş zamanı kosmosda qalma müddәti üzrә qadınlar arasında rekord vurub.**

Bu barәdә CNN telekanalı mәlumat verir. Xatırladaq ki, Kox BKS-ya hәlә martın 14-dә çatıb. Mәlumata әsasәn, Kox dekabrın 28-i üçün kosmosda 289 gün keçirib. Belәliklә, o, kosmosda bir gün artıq olmaqla astronavt Peqqi Vitsonun rekordunu qırıb. Yeni rekordçunun BKS-da 2020-ci ilin fevralına qәdәr qalacağı gözlәnilir.



## Genlәrin bir-birini sevib-sevmәdiyini öyrәnmәk üçün texnologiya hazırlanır

**Potensial tәrәfdaşların DNT-sini müqayisә etmәk funksiyasına sahib onlayn tanışlıq tәtbiqetmәsi yaradılır. Tanınmış genetik Corc Çerç artıq bu işlә mәşğul olduğunu bildirib.**

Mütәxәssisin fikrincә, belә bir analiz tәhlükәli irsi xәstәliklәri olan uşaqların olma riskini azaldır. Bu barәdә TASS xәbәr verib. Ancaq ictimaiyyәt Çerç vә onun layihәsini birmәnalı qarşılamayıb, genetiki evgenika vә irqçiliyi tәbliğ etmәkdә günahlandırıb. Çerçin özü insan genomunun "redaktә edilmәsini" fәal şәkildә müdafiә edir. Hazırda onun rәhbәrlik etdiyi işçi qrupu bir mamontu diriltmәk, qocalmanı lәğv etmәk üçün vasitә yaratmaq vә DNT-dә insanı HİV-ә qarşı davamlı edәcәk "düzәlişlәr" üzәrindә işlәyir. Onlayn tanışlıq üçün tәtbiq mütәxәssisin başqa bir layihәsidir. Onun sözlәrinә görә, tәtbiq potensial tәrәfdaşlar arasında potensial genomdakı mutasiyaları aşkar edәrsә, xәbәrdarlıq göndәrәcәk. Gәlәcәk valideynlәrdә bu cür mutasiyalar üst-üstә düşәrsә, uşaqlarında anadangәlmә xәstәliklәrin yaranma ehtimalı orta hesabla 25% artacaq. Tәtbiqin istifadәçilәrin genomu haqqında mәlumatların mәxfiliyini qoruyacağı gözlәnilir. Bundan әlavә, analiz, yalnız әn tәhlükәli xәstәliklәrlә әlaqәli mutasiyalara tәsir edәcәk.

### Elan

Şәki rayonu, Böyük Dәhnә kәnd sakini Abdullayev Cabir İlyaz oğlunun vә ailә üzvlәrinin adına verilmiş JN: 718 saylı torpağa mülkiyyәt hüququna dair Dövlәt Aktı itdiyi üçün etibarsız sayılır.

Şәki şәhәr sakini Mәmmәdova Rәxşәndә Vahid qızının vә Mәmmәdov Namik Fәrhad oğlunun adına verilmiş 404013010864-10301 saylı reyestrdәn çıxarış sәnәdi itdiyi üçün etibarsız sayılır.



## "Bakcell" vә "ASAN Mәktub" leykemiyadan әziyyәt çәkәn uşaqlar üçün bayram şәnliyi tәşkil edib

**"Bakcell" şirkәti vә "ASAN Mәktub" leykemiyadan әziyyәt çәkәn uşaqlar üçün Yeni İl münasibәtilә bayram şәnliyi tәşkil edib.**

"ASAN Mәktub" layihәsinin "Bakcell"in tәrәfdaşlığı vә "Personaj Agency"nin dәstәyilә keçirilmiş növbәti tәşәbbüsünün mәqsәdi leykemiyadan әziyyәt çәkәn 35 uşağa bayram sevincini bәxş etmәk idi.

B.Eyvazov adına Azәrbaycan Elmi-Tәdqiqat Hematologiya vә Transfuziologiya İnstitutunda müalicә alan uşaqlarda bayram әhval-ruhiyyәsi yaratmaq üçün buraya sәfәr tәşkil edilib, balacalara hәdiyyәlәr tәqdim olunub.

"ASAN Könüllülәri" Tәşkilatının "ASAN Mәktub" layihәsinin әsas mәqsәdi hәssas qruplara aid olan uşaqlara sevinc bәxş etmәk vә cәmiyyәtdә sosial mәsuliyyәt vә qayğı hissini daha da artırmaqdır. Layihә çәrçivәsindә uşaqların yazdığı mәktublar www.asanmektub.az saytına yerlәşdirilir vә onların arzu vә istәklәri müxtәlif şirkәtlәr vә xeyirxah vәtәndaşlar tәrәfindәn gerçәyә çevrilir.

"Bakcell" şirkәti layihәyә, hәmçinin, mobil rabitә dәstәyi göstәrir.

"Bakcell" xüsusi qayğıya ehtiyacı olan uşaqlara dәstәk, onlar üçün bәrabәr hüquqların, inklüziv tәhsil imkanlarının tәmin edilmәsinә yönәlmiş bir çox layihәdә fәal iştirak edәrәk minlәrlә uşağa dәstәk göstәrib. "ASAN Mәktub" layihәsi ilә uzunmüddәtli tәrәfdaşlıq "Bakcell" şirkәtinә uşaqları sevindirmәk vә onların saf arzularını hәyata keçirmәk üçün daha böyük imkan yaradıb.





**Qoç** - Günün әvvәlindә davamlı sәylәr tәlәb etmәyәn başlanğıclar daha uğurludur. Günün ikinci yarısında hәyat sizә xoş tәrәfini göstәrәcәk. Bu saatlarda dostunuzdan, imkanlı qohumunuzdan vә ya hansısa nüfuzlu şәxsdәn әlavә maddi vә mәnәvi yardım ala bilәrsiniz.



**Buğa** - Günün birinci yarısında pulla bağlı mәsәlәlәri uğurla hәll edә bilәrsiniz. Bu, maliyyә hesabatlarının aparılması vә alqı-satqı üçün dә pis vaxt deyil. Günün ikinci yarısı isә daha gәrgin olacaq.



**Әkizlәr** - Pullarınızı xәrclәmәyә tәlәsmәyin, başqalarının әmanәt etdiyi vәsaitә qarşı maksimal ehtiyat nümayiş etdirin. Borc vermәk, bank hesabı açmaq, sığorta rәsmilәşdirmәk, hansısa әmlakla bağlı borc әmәliyyatlarına girmәk mәslәhәt görülmür.



**Xәrçәng** - Vacib addımlar atmaq vә yeni işlәrә başlamaq tövsiyә olunmur. Elәcә dә, әhval-ruhiyyәnizin tәsiri altında qәrarlar qәbul etmәyin. Çünki, sonradan hәrәkәtlәrinizә görә peşmanlıq çәkә bilәrsiniz.



**Şir** - Bu müddәtdә fantaziyanız güclәnәcәk, incәsәnәtә hәvәsiniz artacaq. Rәqs, üzgüçülük, hamam vә ya saunaya getmәk üçün әla gündür. Günün ikinci yarısında emosionallıq arta bilәr.



**Qız** - Gün әrzindә baş verәcәk hadisәlәr sizin gündәlik hәyata nә qәdәr bağlı olduğunuzu göstәrәcәk. Әgәr mühacirәt etmәk vә xaricdә işlәmәk üçün uzunmüddәtli müqavilә bağlamaq istәyirsinizsә, düşünün ki, әcnәbilәrlә öz әrazilәrindә ünsiyyәt daha rahatdır, nәinki kökündәn ayrılaraq yad hәyata qoşulmaq.



**Tәrәzi** - Әgәr siz hәyatda aktiv möve tutursunuzsa, sәhәr tez oyanın. Mәhz sәhәr saatlarında şәxsi tәşәbbüs vә yaradıcı ruh nümayiş etdirmәk imkanınız olacaq. Günün ikinci yarısında diqqәtiniz maddi tәrәfә yönәlәcәk.



**Әqrәb** - Maliyyә baxımından çox yaxşı bir gündür, bir çoxlarının işlәrini qaydasına salmaq imkanı olacaq. Hәtta, hәyata fәrqli baxışa malik insanlar üçün dә dil tapmaq asan olacaq. Şәxsi münasibәtlәr baxımından gün çox yaxşıdır.



**Oxatan** - Mürәkkәb gündür. Biznes planlarınız tәhlükә altındadır. Maliyyә itkilәri gözlәnilir. Bir çox Әkizlәr öz karyeralarını davam etdirmәk üçün yeni sahәlәr axtarmağa çalışacaqlar.



**Oğlaq** - İşlәr yaxşılığa doğru dәyişir. Әsasәn ona görә ki, vacib insanlar sizә hamilik edirlәr. "Güclü arxa" hissi sizә ilham verir vә hәtta çox güclü rәqiblә mübarizәyә girişmәkdәn çәkinmirsiniz.



**Dolça** - Sizin imkanlarınız getdikcә genişlәnir, tamamilә yeni, çox faydalı layihәni hәyata keçirә bilәrsiniz. İşinizdә diqqәtli olun, heç bir sәhv buraxmayın, sәnәdlәrlә diqqәtli olun, rәsmilәrlә münasibәtlәrinizә ciddi fikir verin.



**Balıqlar** - Siz nüfuzlu adamlarla әlaqәlәr quraraq öz mövqeyini daha da möhkәmlәdә bilәrsiniz. İndi yardım üçün sizә müraciәt edәnlәr bu vaxtadәk sizә üstdәn aşağı baxırdılar. Kiçik qisas üçün bu vәziyyәtdәn istifadә etmәyin.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Acı bibәrin faydaları vә ziyanı

**Günümüzdә әn çox istifadә olunan tәrәvәzlәrdәn biri dә acı bibәrdir. "Qafqazinfo" xәbәr verir ki, A, S, B1, B3 vitaminlәri ilә zәngin tәrәvәzin 100 qramının enerji dәyәri 44 kilokaloridir.**

Acı bibәr suyu uzun müddәt davam edәn güclü baş ağrıları zamanı faydalıdır. Lakin allergiyası olanlar ondan istifadә zamanı ehtiyatlı davranmalıdırlar. Kosmetologiyada da istiotdan istifadә edilir.

Sellülit әleyhinә olan bir çox kremin tәrkibindә acı bibәr var.

Qırmızı vә yaşıl rәngdә olan acı bibәrin insan orqanizminә faydaları ilә yanaşı, ziyanı da var. Qastrit, mәdә xorası, mәdә-bağırsaq sistemi xәstәliklәrindәn әziyyәt çәkәnlәr ondan uzaq olmalıdırlar.

**Eyni zamanda qaraciyәr vә böyrәk xәstәliklәrindәn әziyyәt çәkәnlәr dә acı bibәrdәn istifadә etmәmәlidir.**

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.